QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 189 (4931) **14 oktyabr** 2015-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "YENİ HƏDƏFLƏRƏ DOĞRU!"

## YENİ AZƏRBAYCAN PARTİYASININ NAMİZƏDLƏRİNƏ

## SƏS VERƏK!

## İlham Əliyev: "Xocalı soyqırımının baş verməsinin əsas səbəblərindən biri də tarixi hadisələrə vaxtında adekvat qiymət verilməməsidir"



Səh 2

**YAP-ın nümayəndə heyəti Çinə səfər edəcək**

5

**PA rəsmisi: "Tarasov ağlına nə gəldi yazır"**



5

**"Onlara tapşırıq verilib ki, seçkini boykot etsinlər"**



4

**Şeyxülislamdan xəbərdarlıq: "Xətaya yol verənlər cəzalandırılacaq"**



9

5

**"ATƏT/DTİHB-nin rəhbərliyi məqsədyönlü şəkildə seçkilərin müşahidəsi kimi texniki məsələni siyasiləşdirir"**



11

**OPEC: ABŞ-da neft istehsalı 8 ildən sonra ilk dəfə azalacaq**



16

**Ronaldo dördüncü dəfə "Qızıl buts" mükafatına sahib olub**



# İlham Əliyev: "Xocalı soyqırımının baş verməsinin əsas səbəblərindən biri də tarixi hadisələrə vaxtında adekvat qiymət verilməməsidir"



***Azərbaycan Prezidenti İlham Əliyev Dünya tarixçilərinin VIII beynəlxalq Atatürk konfransının iştirakçılarına təbrik məktubu ünvanlayıb. Məktubda qeyd olunur: "Hörmətli konfrans iştirakçıları! Sizi səmimi qəlbdən salamlayır və növbəti toplantınızın işə başlaması münasibətilə təbrik edirəm. Tarixçi alimlərin mötəbər məclisinin Gəncə şəhərində keçirilməsi ölkəmizin elmi və ictimai həyatında əlamətdar hadisə olmaqla yanaşı, həm də dərin rəmzi məna daşıyır. Hələ qədim və orta əsrlər dövründə iri ticarət və mədəniyyət mərkəzi kimi tanınmış, bəşər sivilizasiyasına Nizami, Məhsəti və digər görkəmli şəxsiyyətlər bəxş etmiş bu diyar bütövlükdə şərq-müsəlman intibahının əsas ocaqlarından biri sayılır".***

Dövlət başçısı vurğulayıb ki, tarix elmi indiyə qədər böyük inkişaf yolu keçmiş, texniki nailiyyətlərin, texnoloji yeniliklərin tətbiqi sayəsində araşdırmaların kəmiyyət və keyfiyyət göstəriciləri xeyli yüksəlib: "Lakin bu elmin xalqlar və cəmiyyətlər qarşısındakı başlıca missiyası dəyişməz olaraq qalır: keçmişi yaşatmaqla bu günə və gələcək tərəqqiyə xidmət göstərmək. Yalnız obyektiv, qərəzsiz yazılan gerçək tarix bəşəriyyətin inkişafına dəyərli töhfə verə bilər. Gerçəkliyi üzə çıxarmağın səmərəli yollarından biri isə mütəxəssislərin iştirakı ilə keçirilən belə nüfuzlu elmi toplantılardır. Konfransın region ölkələrinin XIX-XX əsr tarixinə həsr olunması həm də mühüm siyasi əhəmiyyətə malikdir. Belə ki, o dövrdə cərəyan etmiş proseslər xalqlarımızın taleyində dərin iz buraxmış, mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı təsirinin artmasına, milli şüurun formalaşmasına, dövlətçilik ənənələrinin yeni formada dirçəlməsinə şərait yaratmışdır".

İlham Əliyev bildirib ki, eyni zamanda tarixin bu mərhələsi böyük sarsıntılar, müstəmləkə işğalları, türk-müsəlman toplumlarına qarşı törədilən qırğınlar, deportasiya və etnik təmizləmələrlə yaddaşlarda qalıb, günümüzədək davam edən münaqişələr və digər faciəli hadisələrlə müşayiət olunub: "Həyat göstərir ki, tarixi həqiqətlərin gizlədilməsi və ya təhrif olunması, elmi araşdırmaların məhdud ideoloji çərçivələrə salınması, siyasi məqsədlərə və geosiyasi maraqlara tabe etdirilməsi acı nəticələrə gətirib çıxarır, xalqları çətin sınaqlarla üz-üzə qoyur. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş cinayətlərin yüzilliyin sonlarında yenidən və daha ağır formada təkrarlanması, Azərbaycan Respublikası ərazisinin 20 faizinin Ermənistan tərəfindən zəbt olunması, soydaşlarımızın deportasiyası, Xocalı soyqırımı kimi dəhşətli faciənin baş verməsinin əsas səbəblərindən biri də məhz tarixi hadisə və proseslərin obyektiv işıqlandırılmaması, onlara vaxtında adekvat qiymət verilməməsidir. Təqdirəlayiq haldır ki, beynəlxalq Atatürk konfransı platformasında birləşən tarixçilər öz peşə borcuna böyük məsuliyyətlə yanaşaraq, keçmişi elmi prinsiplər əsasında araşdırmaq üçün gərgin əmək sərf edirlər. Əminəm ki, bugünkü toplantınızda dinlənəcək məruzə və çıxışlar, aparılacaq elmi müzakirələr həmin müsbət təcrübənin davamlı olduğunu bir daha təsdiqləyəcək, tariximizi daha yaxşı dərk etməyə və ondan ibrət dərsi götürməyə əlavə imkanlar yaradacaqdır. Sizə çətin və şərəfli işinizdə yeni uğurlar arzulayıram".

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Son illərdə Sumqayıt şəhərində çoxmənzilli binaların sakinlərinin yaşayış şəraitinin yaxşılaşdırılması, onları narahat edən problemlərin aradan qaldırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, o cümlədən lift təsərrüfatının yenidən qurulması sahəsində müəyyən işlər görülüb. Sərəncamda qeyd olunur ki, bu istiqamətdə tədbirlərin davam etdirilməsinin vacibliyini və əhalinin müraciətlərini nəzərə alaraq, Sumqayıt şəhərində lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, dövlət mənzil fonduna aid olan çoxmənzilli binalarda istismara yararsız daha 76 liftin yeniləri ilə əvəz edilməsi məqsədilə, Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Sumqayıt Şəhər İcra Hakimiyyətinə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan 3,7 milyon manat ayrılsın. Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığının Hökuməti arasında hava əlaqəsi haqqında" 2015-ci il iyulun 8-də Ciddə şəhərində imzalanmış Sazişi təsdiq edib. Dövlət başçısı, həmçinin Azərbaycan Respublikası Hökuməti ilə Kanada Hökuməti arasında diplomatik missiyalar və konsulluq nümayəndəlikləri əməkdaşlarının ailə üzvlərinin əmək fəaliyyəti haqqında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Kanadanın Xarici İşlər və Beynəlxalq Ticarət Departamenti arasında 2013-cü il yanvarın 7-də və 2015-ci il aprelin 9-da həyata keçirilmiş notalar mübadiləsi formasında Sazişi təsdiq edib.

# Özbəkistanın sharh.uz analitik portalı Azərbaycan Prezidentinin beynəlxalq "Cənub-Cənub" mükafatı ilə təltif olunmasından yazır

***Özbəkistanın sharh.uz analitik informasiya portalında Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci il üzrə beynəlxalq "Cənub-Cənub" mükafatı ilə təltif olunması barədə məqalə verilib. Məqalənin müəllifi Şərafəddin Tulaqanov yazır ki, Azərbaycan Prezidenti ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı fəaliyyəti və bu sahədə həyata keçirilən dövlət proqramları, yoxsulluğun minimuma endirilməsi, Minilliyin İnkişaf Məqsədlərinin uğurla həyata keçirilməsi istiqamətində xidmətlərinə görə bu mükafatla təltif olunub.***

Qeyd edilir ki, bu gün Azərbaycan öz iqtisadi inkişafına görə Cənubi Qafqazın lider dövlətinə çevrilib. Regionda insan resurslarının təxminən 60 faizi, yanacaq-enerji, maliyyə ehtiyatlarının 90 faizi, iqtisadi potensialın 75-80 faizi Azərbaycanın payına düşür. Oxucuların diqqətinə çatdırılır ki, indi Azərbaycan donor ölkədir. Dünyanın bir sıra ölkələri, o cümlədən Rusiya, Türkiyə, Belarus, Ukrayna, Moldova, Gürcüstan, Serbiya, Rumıniya, Monteneqronun iqtisadiyyatına investisiya qoyur.


Sharh.uz
Axborot-tahlil
Бош саҳифа | Сиёсат | Иқтисодиёт | Жамият | Адабиёт ва санъат | Муносабат | Давлат органлари | Аналитика | Медиа

Сешанба, 06 Октябрь 2015 17:48

Ильхам Алиев удостоен международной награды Юг-Юг за 2015 год

Автор Sharh.uz

шрифт ҳажми | Печать | Эл. почта

Материални баҳоланг (1 Овоз)

**26 сентября текущего года в Нью-Йорке состоялась церемония вручения награды Юг-Юг. На церемонии было отмечено, что Президент Ильхам Алиев удостоен награды Юг-Юг за политическую волю руководства страны в области улучшения социального благосостояния, реализованные в этой связи государственные программы, сведение до минимума безграмотности и бедности и меры, направленные на успешное осуществление Целей развития тысячелетия.**

Награду от имени Президента Ильхама Алиева принял министр иностранных дел Эльмар Мамедьяров. Награда Юг-Юг учреждена Продовольственной и сельскохозяйственной организацией ООН, Управляющим комитетом Юг-Юг по устойчивому развитию, Международным телекоммуникационным союзом, Международной организацией по сотрудничеству Юг-Юг и рядом государств-членов ООН, агентств и фондов.

Vurğulanır ki, məhz Azərbaycan Prezidentinin qətiyyətli siyasəti nəticəsində möhtəşəm Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi həyata keçirilir və bu layihənin reallaşması nəticəsində Avropa və Asiya ölkələrini ən qısa yolla birləşdirmək mümkün olacaq, tarixi İpək Yolu bərpa ediləcək. Məqalədə bildirilir ki, Azərbaycanın paytaxtı Bakı beynəlxalq humanitar əməkdaşlıq, habelə ilk Avropa Oyunlarının keçirilməsi üçün bir platforma rolunu oynayıb. Bakı yalnız Azərbaycanda deyil, bütün dünyada yaşayan azərbaycanlıların fəxr etdiyi şəhərə çevrilib. Ş.Tulaqanov qeyd edir ki, Azərbaycan tarixən müxtəlif sivilizasiyaların qovuşduğu bir məkandır. Ölkədə bütün dinlərin və mədəniyyətlərin dinc yanaşı yaşaması təmin olunub. Məqalənin sonunda diqqətə çatdırılır ki, Azərbaycan Özbəkistanın dostları arasında birincilər sırasındadır. Regionda Özbəkistanın əsas tərəfdaşı olan Azərbaycanın Cənubi Qafqazda geostrateji və geoiqtisadi əhəmiyyəti durmadan artır. Müəllif əminliklə bildirir ki, yaranmış dostluq münasibətləri ölkələrimizin və xalqlarımızın rifahı naminə inkişaf edəcək.

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Daşkənd***

# Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş YAP bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında yeni hədəflərə doğru inamla addımlayır

*Milli Məclisin Sədri, MM-in deputatlığına namizəd Oqtay Əsədovun yap.org.az-a müsahibəsi*

***- Hörmətli Oqtay müəllim, ölkəmizin ictimai-siyasi həyatında son dərəcə mühüm bir hadisə ərəfəsindəyik. Qarşıdan növbəti parlament seçkiləri gəlir. Bu siyasi proseslə bağlı fikirlərinizi bilmək istərdik.***

- Hər bir müasir ölkədə qanunvericilik orqanına seçkilər və bu prosesin şəffaf gedişi demokratik inkişaf səviyyəsinin əsas göstəricilərindən biridir. Parlament seçkilərinin əhəmiyyətini müəyyənləşdirən məqam budur ki, xalq növbəti dövr üçün ali hakimiyyətin mühüm qollarından birinin tərkibini formalaşdırır.

Bugünkü Azərbaycan möhkəm əsaslar üzərində qurulmuşdur. Müstəqilliyin ilk illərində ulu öndər Heydər Əliyevin fədakar əməyi sayəsində milli dövlətçiliyimizin təməli qoyulmaqla yanaşı, onun ideoloji-siyasi dayaqları da yaradılmışdır. Bu dahi şəxsiyyətin müstəqil dövlətçilik məfkurəsi bu gün Prezident İlham Əliyev tərəfindən daha da zənginləşdirilərək, müasir dünyada cərəyan edən mürəkkəb iqtisadi və siyasi proseslər şəraitində Azərbaycanı yeni-yeni zirvələrə aparan ideoloji baza rolunda çıxış edir.

Azərbaycan parlamenti bugünkü dövlətçilik sistemimizdə mühüm yer tutur. Bu sahədə mövcud olan tarixi ənənələrin qorunub saxlanılması və inkişaf etdirilməsi baxımından ölkənin Milli Məclisinə qloballaşan dünyada baş verən proseslərə bələd olan müasir dünyagörüşlü insanların seçilməsi, ölkənin siyasi palitrasının və plüralizmin Milli Məclisdə əks olunması, milli mənafelərə söykənən qanunvericiliyin inkişafı günün tələbidir.

Ölkə vətəndaşları yaxşı başa düşürlər ki, sabitlik olmayan yerdə inkişaf da mümkün deyildir. Azərbaycanda bərqərar olmuş ictimai-siyasi sabitlik ölkə qarşısında dayanan vəzifələrin yerinə yetirilməsinə əlverişli zəmin yaradır. Heç də təsadüfi deyildir ki, bu gün Cənubi Qafqazda istehsal edilən ümumi daxili məhsulun 80 faizindən çoxu Azərbaycanın payına düşür. Artıq kosmik klubun bir üzvü olan Azərbaycan vaxtilə borc alan ölkədən borc verən ölkəyə çevrilmişdir. Dövlətimizin haqq səsi dünyanın mötəbər kürsülərindən cəsarətlə səslənir.

Ölkədə vətəndaş cəmiyyətinin formalaşması, xalqın rifahının günü-gündən artırılması kimi amillər milli mənafelərə xidmət edir. Məhz bunun nəticəsində Azərbaycan özünün müstəqillik tarixində keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycanda uğurlu siyasi və iqtisadi islahatların aparılmasında parlamentin rolu böyükdür. Məhz buna görə dünyada cərəyan edən siyasi və iqtisadi böhran Azərbaycana bir o qədər də mənfi təsir göstərə bilməmişdir.

Təəssüflə qeyd etmək istəyirəm ki, seçki ərəfəsində Azərbaycanın inkişafını, ölkədəki sabitliyi, xalqla iqtidar arasındakı birliyi gözü götürməyən qüvvələr vəziyyəti süni şəkildə gərginləşdirmək üçün dəridən-qabıqdan çıxırlar. Bu işdə onlara erməni millətçilərinə xidmət edən xarici ha-



vadarları da yaxından kömək göstərirlər.

Ölkə Prezidenti cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, Azərbaycan müstəqil daxili və xarici siyasət yeridir, bölgədə heç bir layihə Azərbaycanın iştirakı olmadan reallaşa bilməz. Bizimlə heç kəs diktə dilində danışa bilməz. Görünür, ölkə rəhbərliyinin tutduğu bu xətt xaricdəki bir sıra dairələri narahat edir. Onlar varlı, qüdrətli, sözün əsl mənasında müstəqil Azərbaycanı heç vəchlə "həzm" edə bilmir, ölkəmizi zəif və "sözəbaxan" görmək istəyirlər.

Fikirlərimin təsdiqi üçün çox da uzağa getməyə ehtiyac yoxdur. Bu yaxınlarda Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi son qətnaməsi buna bir misaldır. "İnsan hüquqlarının müdafiəsi" adı altında bizə hücum çəkənlərin hansı məqsədlərə xidmət etdikləri gün kimi aydındır. Ermənistanın işğalçılıq siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqının hüquqlarına biganə yanaşan, Azərbaycan torpaqlarının işğalına göz yuman bu siyasətbazlar, görünür, ikili standartlar mərəzindən heç cür xilas ola bilmirlər. Azərbaycan kimi ərazicə kiçik bir ölkə 1 milyon qaçqının problemlərini uğurla həll edə bildiyi halda, qoca Avropa bir ovuc qaçqın probleminin əlində "əsir-yesir" qalıb.

Milli Məclis bu məsələ ilə əlaqədar xüsusi iclas keçirərək, özünün 15 sentyabr 2015-ci il tarixli qərarında Avropa Parlamentinin yuxarıda adı çəkilən qətnaməsini Azərbaycanın siyasi hakimiyyətinə atılmış şər və böhtan kimi, tərəfdaşlıq münasibətlərini sarsıtmağa, ölkəni dünyaya inteqrasiya proseslərindən təcrid etməyə yönəlmiş uğursuz cəhd kimi dəyərləndirmişdir.

Azərbaycan xalqı öz Prezidentinə inanır və onun yeritdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir. Bu cür kağız parçaları ilə Azərbaycanı ləkələmək istəyənlər bu hərəkətlərindən əl çəkib Azərbaycanla bərabərhüquqlu əməkdaşlıq haqqında düşünsəydilər, təmsil etdikləri xalqlara, seçicilərinə daha çox fayda vermiş olardılar.

Hər cür təzyiqlərə baxmayaraq, Azərbaycanda seçkiqabağı proses dünyada qəbul olunmuş demokratik prinsiplər əsasında azad və şəffaf şəkildə davam edir. Bunun üçün Milli Məclis tərəfindən mükəmməl qanunvericilik bazası formalaşdırılmışdır. Seçicilərin öz iradəsini sərbəst ifadə etməsi üçün hər cür şərait yaradılmışdır. Heç şübhəm yoxdur ki, noyabrın 1-də - seçki günü xalqımız ən layiqli oğul və qızlarına səs verərək, öz yeni parlamentini formalaşdıracaqdır.

Əminəm ki, yeni seçiləcək parlament qarşıdakı illərdə Azərbaycanda demokratik proseslərin daha da dərinləşməsinə, hüquqi dövlət quruculuğuna, ölkə iqtisadiyyatının inkişafına, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə öz töhfəsini verməklə, müasir parlamentarizm tariximizin yeni, müsbət məna ilə dolu səhifəsini yazacaqdır.

***- Hörmətli Oqtay müəllim, Siz ölkənin iki çağırış Milli Məclisinə rəhbərlik etmisiniz. Sizin sədrliyiniz dövründə ölkənin ictimai-siyasi həyatında parlamentin oynadığı rol barədə nə deyə bilərsiniz?***

- Parlament ölkənin siyasi və hüquqi sisteminin dayaqlarından biridir. Burada qəbul edilən qanun və qərarlar təbii olaraq ölkənin ictimai-siyasi həyatına öz təsirini göstərir. Azərbaycanda sosial ədalət prinsipinə söykənən müasir cəmiyyətin yaranmasına Milli Məclis önəmli töhfəsini vermişdir. Siyasi sistemin dünya standartları səviyyəsinə yüksəlməsi, ölkənin iqtisadi qüdrətinin artması və demokratik proseslərin dərinləşməsi məqsədi ilə hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi həmişə Milli Məclisin diqqət mərkəzində olmuşdur.

Ulu öndər tərəfindən əsası qoyulmuş milli inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın iqtisadi inkişaf modeli bütün dünyada təqdir olunur. Dövlət başçısı haqlı olaraq vətəndaş cəmiyyətinin yaradılmasını, demokratikləşmə prosesinin genişlənməsini, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsini, qeyri-neft sektoruna diqqətin daha da artırılmasını Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərt hesab edir.

Bu gün regionun iqtisadi simasını dəyişmək iqtidarında olan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft və qaz kəmərləri təkcə bölgənin deyil, həm də Avropanın enerji təhlükəsizliyinə də mühüm töhfə verir. Azərbaycan bununla kifayətlənmir. Qədim İpək yolunu dəmir relslər üzərinə keçirmək arzusunda olan ölkəmiz Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin köməyi ilə Asiya ilə Avropanı birləşdirəcək yeni kommunikasiya qovşağı yaratmağa hazırlaşır. TANAP kimi mühüm qaz layihəsinin reallaşması isə nəinki regionun, eləcə də Avropanın enerji xəritəsini dəyişəcəkdir.

Aparılan məqsədyönlü siyasət nəticəsində ölkəmizin paytaxtı Bakı mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu bir məkana çevrilmişdir. Beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi artıq adi hal almışdır. Eurovision-2012, Birinci Avropa Oyunları kimi tədbirlər buna parlaq misaldır. Azərbaycan 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarına və digər nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etmək əzmindədir. Bütün bunlar ölkəmizin dünyanın idman mərkəzlərindən birinə çevrilməsindən xəbər verir.

Bu nailiyyətlərin əldə edilməsinə Azərbaycan parlamenti də öz töhfəsini vermişdir. Belə ki, Milli Məclis həmişə dövlət başçısı tərəfindən həyata keçirilən quruculuq işlərini, həyatın bütün sahələrində islahatların aparılmasını öz səlahiyyətləri çərçivəsində dəstəkləmişdir. Ötən illərdə Milli Məclis qanunvericilik sistemini daha da təkmilləşdirmək istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir.

Ümumiyyətlə, son 10 il ərzində Parlamentin 266 iclası keçirilmiş, 2516 qanun və qərar qəbul olunmuşdur. Onlardan 6-sı Konstitusiya qanunu, 23-ü Konstitusiya qanununa dəyişikliklər, 263-ü qanun, 1363-ü qanuna dəyişikliklər və əlavələr, 301-i isə qərardır. Parlament mənim sədrliyim dövründə 560 beynəlxalq müqavilə və konvensiyanı qanunla təsdiq etmişdir.

Bu gün Azərbaycanın bütün sahələr üzrə hüquqi bazası mövcuddur. Qəbul olunmuş Konstitusiya qanunları, məcəllələr, qanunlar, təsdiq edilmiş konvensiyalar, sazişlər cəmiyyət və dövlət həyatında yaranan münasibətləri tənzimləməyə xidmət edir. Qanunvericilik fəaliyyətində bəşəri dəyərlər milli dəyərlərimizlə üzvi surətdə əlaqələndirilir.

Parlamentdə qəbul olunmuş sənədlərin mühüm bir hissəsi ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim edilmişdir. İlham Əliyev hələ 1995-2003-cü illərdə Azərbaycan parlamentinin deputatı olduğu dövrdə Milli Məclisin qanunyaratma fəaliyyətində yaxından iştirak etmiş, qanunvericiliyimizin müasir standartlar səviyyəsinə yüksəlməsinə, parlamentin beynəlxalq əlaqələrinin genişlənməsinə dəyərli töhfələr vermişdir. Onun yaxından iştirakı ilə formalaşmış milli parlament diplomatiyası ənənələri bu gün deputatlarımız tərəfindən nüfuzlu beynəlxalq qurumlarda uğurla davam etdirilir.

Hazırda Milli Məclis Parlamentlərarası İttifaqın, Avropa Şurası Parlament Assambleyasının, MDB Parlamentlərarası Assambleyasının, ATƏT Parlament Assambleyasının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, GUAM Parlament Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatı Parlament Məclisinin, Türkdilli Ölkələrin Parlament Assambleyasının, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının tam hüquqlu, NATO Parlament Assambleyasının assosiativ üzvüdür. Milli Məclis digər mötəbər beynəlxalq qurumlarla da sıx əməkdaşlıq edir. Deputatlarımız mütəmadi olaraq bu təşkilatların işində yaxından iştirak edir, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırırlar.

**Ardı Səh. 4**

# Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş YAP bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında yeni hədəflərə doğru inamla addımlayır

*Milli Məclisin Sədri, MM-in deputatlığına namizəd Oqtay Əsədovun yap.org.az-a müsahibəsi*

Əvvəli Səh. 3

Beynəlxalq əməkdaşlıq müstəvisində aparılan bu siyasət artıq öz bəhrələrini verməkdədir. Heç də təsadüfi deyildir ki, Avropa Parlamenti, o cümlədən İtaliya və Almaniya kimi nüfuzlu dövlətlərin qanunvericilik orqanları Cənubi Qafqazla bağlı qəbul etdikləri qətnamələrdə Dağlıq Qarabağ problemi ilə əlaqədar Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş, dünyanın bir sıra dövlətlərinin parlamentləri Xocalı soyqırımını tanımışlar. Bütün bunlar Azərbaycan parlament diplomatiyasının uğurlarından xəbər verir.

Parlamentdə 80-dən çox ölkənin qanunvericilik orqanı ilə əlaqələr üzrə işçi qrupları yaradılmışdır. Bu qruplar qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsində, parlamentin beynəlxalq əlaqələrinin inkişafında mühüm rol oynayırlar.

Azərbaycan Prezidenti deputatlara günün tələbləri səviyyəsində iş şəraitinin yaradılması məqsədi ilə Milli Məclisdə deputat köməkçisi institutunun təsis edilməsinə böyük dəstək vermişdir. Dövlət başçısının təşəbbüsü və qayğısı ilə Milli Məclisin siması tamamilə yenilənmişdir. Parlamentin yeni korpusu tikilib istifadəyə verilmiş, maddi-texniki bazası yenidən qurulmuşdur. Milli Məclisə gələn xarici qonaqlar parlamentdə millət vəkilləri üçün yaradılmış şəraitə heyran qaldıqlarını dəfələrlə vurğulamışlar. Burada müasir iclas salonları, ümummilli lider Heydər Əliyevə həsr olunmuş Xatirə zalı, zəngin kitabxana yaradılmışdır. Milli Məclisdə müasir informasiya texnologiyaları surətlə tətbiq olunmaqdadır. Elektron qanunvericilik bazasının yaradılması bu sahədə mühüm nailiyyətlərdəndir.

Bu gün Azərbaycanda hakimiyyətin icra və qanunvericilik qolları arasında konstruktiv əməkdaşlığın mövcudluğu vahid dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayır.

***- Ölkənin iqtidar partiyası olan Yeni Azərbaycan Partiyası budəfəki parlament seçkilərində "Yeni hədəflərə doğru!" şüarı ilə gedir. Bu barədə Sizin fikirlərinizi bilmək istərdik.***

- Məlum olduğu kimi, ulu öndərin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Öz sıralarında əhalinin ən müxtəlif təbəqələrinin nümayəndələrini birləşdirən bu siyasi qurum öz fəaliyyəti ilə azərbaycanlıların dərin rəğbətini qazanmışdır. Bir qədər keçmişə nəzər saldıqda görürük ki, YAP hakimiyyətə ilk dəfə gəldiyi dövrdə ölkə hansı vəziyyətdə idi, indi hansı vəziyyətdədir. Partiyanın iqtidarda olduğu dövrdə Azərbaycanın əldə etdiyi uğurlar ölkə hüdudlarından kənarda da, hətta bizi istəməyən dairələr tərəfindən də etiraf olunur.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu partiya bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında yeni hədəflərə doğru inamla addımlayır. Müasir Azərbaycan artıq dünya birliyində özünü təsdiqləməklə yanaşı, bütöv bir bölgənin iqtisadi tərəqqisinə təkan verə biləcək bir gücdədir.

Biz bütün bunlara partiyamızın lideri və dövlətimizin başçısı Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət sayəsində nail olmuşuq. Məhz İlham Əliyevin prezidentliyi dövründə inkişafın Azərbaycan modeli dünyanın nüfuzlu maliyyə qurumları tərəfindən də təqdir olunmuşdur. Ölkədə hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu sürətlə davam etdirilir. Siyasi sistemin inkişaf etdirilməsi, hərtərəfli islahatların həyata keçirilməsi üçün vacib olan qanunlar qəbul olunmuş, mövcud qanunlar daha da təkmilləşdirilmişdir. Bütün bunlar parlament tərəfindən Prezidentin yürütdüyü siyasətə dəstəyin ifadəsidir.

Ölkə Prezidenti dəfələrlə bəyan etmişdir ki, keçid dövrünü arxada qoymuş Azərbaycan inkişaf etmiş ölkələr sırasına çıxmalıdır. Nəzərdə tutulmuş bütün sosial proqramlar həyata keçirilməlidir. Bu gün dünya iqtisadiyyatında davam edən böhrana baxmayaraq, ölkəmiz düşünülmüş siyasət sayəsində bu təlatümlərdən az itki ilə çıxmağa nail olmuşdur. Bütün bunlar Azərbaycanın siyasi və iqtisadi sisteminin necə möhkəm təməllər üzərində dayanmasının göstəricisidir.

Milli inkişafın Azərbaycan modelinin formalaşdırılması, iqtisadiyyatda uğurlu nəticələrin əldə olunması ölkənin sürətli inkişafını təmin etməklə yanaşı, perspektiv tərəqqinin əsaslarını formalaşdırmışdır. Bütün bu nailiyyətlər YAP-ın iqtidarda olduğu dövrdə Azərbaycan dövlətinin qüdrətinin artmasında ifadə olunmuşdur.

Partiyanın Siyasi Şurasının üzvü kimi deyə bilərəm ki, partiyanın Sədri tərəfindən ölkə qarşısında qoyulan hədəflər dəqiq müəyyənləşdirilmişdir. Partiya nə istədiyini və qarşıya qoyulan məqsədlərə necə nail olmağın yollarını yaxşı bilir. İnanıram ki, qarşıdakı seçkidə Yeni Azərbaycan Partiyasının nümayəndələri növbəti dəfə böyük uğur qazanaraq, parlamentdə yerlərin əksəriyyətini əldə edəcəklər. Çünki xalq YAP-a və onun rəhbəri Prezident İlham Əliyevə qəlbən inanır. Onun başçılığı ilə görülən işlərin doğma Azərbaycanımızı hansı səviyyəyə yüksəltdiyini görüb yəqin etmişdir.

Heç şübhə etmirəm ki, yeni seçiləcək V çağırış Milli Məclis də öz sələfi kimi qarşıda dayanan hədəflərə çatmaq naminə ölkə Prezidentinin yeritdiyi siyasəti lazımınca dəstəkləyəcəkdir. Bu işdə hamımıza, bütün Azərbaycan xalqına uğurlar arzulayıram!

# "Onlara tapşırıq verilib ki, seçkini boykot etsinlər"

***Oktyabrın 9-dan başlayaraq qeydə alınmış namizədlərin seçkiqabağı təbliğat-təşviqat kampaniyasına start verilib. YAP İcra katibinin müavini, deputat Siyavuş Novruzov seçkiöncəsi vəziyyətlə bağlı AzNews.az-ın suallarını cavablandırıb:***



***- Siyavuş müəllim, seçkiqabağı vəziyyəti necə qiymətləndirirsiz?***

- Əla. Hər şey öz qaydasındadır. Çünki Azərbaycanda seçki üçün lazım olan mühit var. Ölkəmizdə həm qanunvericilik bazası, həm ictimai-siyasi sabitlik, həm də söz, fikir və mətbuat, internet azadlığı mövcuddur. İstənilən şəxs öz namizədliyini irəli sürüb seçilə bilər. Əgər seçicilər ona səs versələr. Dünya və Avropa praktikası ilə belə müqayisədə seçki ilə əlaqədar ən yüngül forma Azərbaycandadır. Yəni hər bir şəxs ərizə verib 450 imza toplayıb təqdim edirsə, avtomatik olaraq qeydiyyatdan keçib namizəd olur. Ondan sonra təbliğat-təşviqat kampaniyasının aparılması üçün hər bir dairənin ərazisində pulsuz yerlər ayrılıbdır. Yəni heç pul ödəmək də lazım deyil. Dünyanın bir çox ölkəsində, o cümlədən demokratiyanın dırnaqarası beşiyi hesab olunan Amerikada da əgər bir yeri götürüb tədbir keçirmək istəsən mütləq pul ödəməlisən. Amma Azərbaycanda seçkidə bu məsələlərin də bütün yükünü dövlət öz üzərinə götürür. Yəni ölkəmizdə ictimai-siyasi vəziyyət tam normal şəkildədir. Hər bir şəxsin, təşkilatın, siyasi partiyanın, blokun seçkidə iştirak etməsi tam şəkildə təmin olunub. Düzdür bəziləri iştirak eləmir. Onlara da tapşırıq belədir ki, iştirak etməsinlər. Azərbaycanda ciddi siyasi partiyaların böyük əksəriyyəti seçki prosesində iştirak edir. Hazırda qeydiyyatdan keçən 150-yə yaxın partiya var. Onların çox böyük hissəsi seçkidə iştirak edir. O cümlədən ayrı-ayrı qeyri-hökumət təşkilatları və bloklar seçkilərdə iştirak edib namizədlər irəli sürür. Bu səbəbdən seçkiöncəsi prosesi, indiki mərhələyə qədər olan dövrü və hazırki prosesi yüksək qiymətləndirirəm.

***- Yeni Azərbaycan Partiyası seçkidən nə gözləyir?***

- Partiyamız Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün seçkilərdə iştirak edib. Yəni 1993-cü ildən bu günə kimi bütün seçki prosesində YAP iştirak edib və qalib gəlib. Bu seçkilərdə də partiyanın əsas hədəfi ondan ibarətdir ki, keçən parlament seçkilərindən daha yaxşı nəticələr göstərsin. Bunun üçün stimulverici əsaslar var. Bütün dövr ərzində partiyamız və onun rəhbəri Azərbaycan xalqının maraqlarının qorunmasında, ölkəmizin iqtisadi inkişafında, abadlıq-quruculuq işlərinin aparılmasında, yeni iş yerlərinin, müəssisələrin yaradılmasında və digər sferaların hər birində vətəndaşların hüquqlarının qorunmasında, gənclərimizin inkişafında, təhsil və səhiyyə sisteminin formalaşmasında, xalqımızın maraqlarının müdafiə olunmasında aktiv şəkildə iştirak edib və bu prosesləri həyata keçirib. Bununla əlaqədar olaraq seçicilər YAP-a səs verəcək.

***- YAP namizədlərinin seçkiqabağı təbliğat-təşviqat kampaniyası necə gedir?***

- Bütün proseslər çox yüksək səviyyədə gedir. Demək olar ki, bütün namizədlərimiz üçün plakatlar və bukletlər hazırlamışıq. O cümlədən namizədlərimizin hər gün seçicilərlə görüşləri keçirilir. Hər gün orta hesabla 100 dən artıq görüş olur. Ardıcıl şəkildə bu proseslər davam edir. Çalışırıq ki, bütün seçicilərlə görüşək, bütün kəndlərdə və yaşayış məntəqələrində namizədlərimizin olmasını təmin edirik. Onların seçicilərlə görüşməsi, onların arzu və istəklərini öyrənilməsi bizim üçün əsas meyarlardır. İstəyirik ki, gələcək qanunvericilikdə və fəaliyyətimizdə bütün bunların hamısını əlimizdə rəhbər tutaq.

***- Müsavat Partiyasının 23 üzvünün namizədliyi qeydə alınıb. Seçkidə onların şansları necə qiymətləndirirsiz?***

- Ümumi olaraq 23 partiya seçki prosesində iştirak edir. Hər bir siyasi partiyanın şansı onun cəmiyyət üçün görəcəyi işlərlə bağlıdır. Onlarda götür-qoy edib baxmalıdırlar ki, indiyə qədər cəmiyyət üçün nə ediblər? Cəmiyyət də onun müqabilində onlara niyə səs verməlidir? Yenə də son söz seçicinindir. Seçici kimə üstünlük verəcəksə, kimi seçmək istəyəcəksə, o təşkilatın nümayəndələri, o müstəqil namizədlər seçiləcək.

## Azərbaycanda indiyədək 2183 dərman vasitəsinin qiyməti təsdiqlənib və aşağı salınıb



Vətəndaşların səhiyyə ilə bağlı müraciətləri adətən təcili həll olunmalıdır. Bunu nəzərə alaraq, keçən ilin sonunda Elektron Səhiyyə Mərkəzi istifadəyə verilib. Vaxtilə vətəndaşlar ərizə ilə, məktubla nazirliyə müraciət edib, xeyli gözləməli olurdular. İndi isə bir növ Səhiyyə Nazirliyinin "Asan xidmət"i funksiyasını yerinə yetirən bu Mərkəz onların problemlərini rahat və qısa müddətdə həll etməyə imkan verir. Doqquz ay ərzində Elektron Səhiyyə Mərkəzinə 22 min insan müraciət edib, onların problemlərinin əksər hissəsi yerindəcə həll olunub. AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında səhiyyə naziri Oqtay Şiraliyev söyləyib. O.Şiraliyev bildirib ki, dərmanların əsassız qiymət artımının qarşısını almaq üçün İqtisadi İnkişaf və Sənaye Nazirliyi ilə birlikdə tədbirlər proqramı hazırlanıb və tətbiq olunur. Buraya həm aptek şəbəkəsinə nəzarətin gücləndirilməsi, həm satılan dərmanların qiymətinin və keyfiyyətinin uyğunluğuna, həkimlərin təyinatlarına nəzarət, həm də təlimlərin keçilməsi daxildir. Onun sözlərinə görə, bu günə kimi Tarif Şurası 2183 dərman vasitəsinin qiymətini təsdiqləyib və onların da qiyməti aşağı salınıb. Səhiyyə naziri ölkə başçısının təşəbbüsü ilə atılan bu addımın əhali arasında böyük əks-səda doğurduğunu və hər bir insanın gündəlik problemlərinin həllinə yönəldildiyini qeyd edib.



## Ermənistanda ölüm aclığı başladı

Ermənistanda 45 nəfər məhbus ölüm aclığına başlayıb. SİA xəbər verir ki, bu barədə "armtoday" məlumat yayıb. Məlumatda qeyd olunur ki, "Nubaraşen" islah-əmək müəssisəsində cəza çəkən məhbus işlərinin yenidən baxılmasını tələb edirlər. Ermənistanın ədliyyə nazirliyi də bu xəbəri təsdiq edib. Haqlarında ədalətsiz qərarlar çıxarıldığını iddia edən məhbuslar dünəndən etibarən bu aksiyaya start veriblər. Onların arasında siyasi məhbusların çoxluq təşkil etdiyi bildirilir.

# İtaliyanın "Corriere della sera" qəzeti Bakının görməli yerlərindən bəhs edib

***İ**taliyanın "Corriere della sera" qəzetinin saytında Azərbaycanın paytaxtı Bakının görməli yerləri ilə bağlı yazı və fotoreportaj yerləşdirilib. Yazıda qeyd olunur ki, tarixi tikililər ilə müasir arxitektura nümunələrinin bir araya gəldiyi, meqapolisə çevrilmiş Bakı Qafqazın ən inkişaf etmiş şəhərlərindən biridir. Bakının tarixi haqqında məlumat verilən yazıda qeyd olunur ki, şəhərin əsas tarixi mərkəzi sayılan İçərişəhər UNESCO-nun Dünya İrs Siyahısına daxil olunub.*




Burada yerləşən Qız qalası, Şirvanşahlar sarayı və digər tarixi abidələr Bakının qədim simasını özündə əks etdirir. Şəhərin gecə görüntüsünə rəng qatan "Alov qüllələri" kompleksi Azərbaycanın əsas elementlərindən olan atəşi simvolizə edir. "Yanardağ" barədə də məlumat verən müəllif vurğulayır ki, dağın ətəyində təbii qazın çıxması nəticəsində 3 metrədək alovlanan bu təbiət abidəsi buraya gələnlərin marağına səbəb olur. "Yanardağ"da alov həmişə yanır, çünki bu, dövri deyil. Dayanmadan yanmağa davam edən bu fərqli məkan zəngin enerji ehtiyatlarına malik Azərbaycanın "Odlar yurdu" adlanmasının heç də təsadüfi olmadığını göstərir. Ümumiyyətlə, italiyalılar Bakının neft ehtiyatı ilə zəngin olması barədə ilk məlumatları tanınmış italyan səyyahı Marko Polonun qeydlərindən əldə ediblər.

# "ATƏT/DTİHB-nin rəhbərliyi məqsədyönlü şəkildə seçkilərin müşahidəsi kimi texniki məsələni siyasiləşdirir"

***A**TƏT-in baş katibi Lamberto Zanyerin Moskvada keçirilmiş mətbuat konfransında ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) tərəfindən "Azərbaycanda keçiriləcək parlament seçkilərinə müşahidə missiyasının göndərilməməsi ilə bağlı razılığın əldə olunmaması təəssüf doğurur" deyə açıqlamasına Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev münasibət bildirib. H.Hacıyev deyib ki, ATƏT çərçivəsində üzərinə düşən öhdəliklərinə riayət edərək Azərbaycan 2015-ci il iyulun 14-də bu il noyabrın 1-də keçiriləcək parlament seçkilərini müşahidə etmək üçün ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosuna dəvət göndərib.*




DTİHB tərəfindən seçkilərlə əlaqədar hazırlanmış Ehtiyacların Qiymətləndirilməsi Hesabatına münasibətdə Xarici İşlər Nazirliyi tərəfindən rəsmi məktubla Azərbaycanın razı olmadığı məqamlar üzrə əsaslandırılmış cavab ATƏT DTİHB-yə təqdim olunub. Məktubda Azərbaycan tərəfindən Ehtiyacların Qiymətləndirilməsi Hesabatında öz əksini tapmış bəzi məqamların düzgün və əsaslandırılmış olmadığı və ATƏT məkanında mövcud seçki praktikasına uyğun olaraq müşahidəçilərin sayının ölkə əhalisi, seçici və seçki dairəsinin sayına mütənasib və rasional olmalı olduğu vurğulanıb. Belə ki, 9.5 milyon əhalisi və 125 seçki dairəsi olan Azərbaycana ATƏT/DTİHB tərəfindən 400 nəfər müşahidəçinin göndərilməsi heç bir məntiqə sığmır. Müqayisə üçün qeyd edək ki, 50 milyon əhalisi olan Ukraynaya 26 oktyabr 2014-cü il seçkilərini müşahidə etmək üçün 600 nəfər, 150 milyona yaxın əhalisi olan Rusiyaya 4 dekabr 2011-ci il seçkilərində 200 nəfər, 5 oktyabr 2015-ci ildə Bolqarıstanda keçirilən seçkilərə 12 nəfər, 16 mart 2014-cü ildə Serbiyada keçirilən seçkilərə 12 nəfər, 21 dekabr 2014-cü ildə Özbəkistanda keçirilən seçkilərə isə 12 nəfər müşahidəçi göndərilib. DTHİB əhali və seçici sayına nisbətdə müşahidəçilərin sayının bu dərəcədə qeyri-mütənasibliyinin məntiqi izahatını hələ də verə bilməyib.

Məntiqi izah vermək əvəzinə, ATƏT DTİHB-nin rəhbərliyi tərəfindən birtərəfli qaydada məsləhətləşmə aparmadan və mandatını kobud şəkildə pozaraq, Azərbaycanda keçiriləcək parlament seçkilərinin müşahidə edilməməsi barədə qərar qəbul olunub. 1992-ci il Helsinki sənədinə əsasən, ATƏT/DTİHB-nin əsas rolu üzv dövlətlərə insan hüquqları ölçüləri üzrə öhdəliklərinin həyata keçirilməsinə yardım etməkdir. 1994-cü il ATƏT-in Budapeşt sammitinin qərarına görə isə ATƏT/DTİHB-nin məşvərətçi funksiyaların yerinə yetirilməsinə dair rolu müəyyən edilib. Budapeşt sənədində deyilir: "DTİHB fəaliyyətdə olan sədr ilə məsləhətləşərək və məşvərətçi rolunda çıxış edərək Daimi Şuranın müzakirələrində iştirak edir və həyata keçirilmiş məsələlər üzrə məlumat təqdim edir. Fəaliyyətdə olan sədr ilə sıx məsləhətləşmə şəraitində DTİHB-nin rəhbəri növbəti addımları təklif edə bilər".

Göründüyü kimi, ATƏT/DTİHB-nin fəaliyyətdə olan sədr və aidiyyəti üzv dövlət ilə məsləhətləşmə aparmadan birtərəfli qərar qəbul etmək səlahiyyəti yoxdur. Nəticə etibarilə, icraçı təsisat olaraq, səlahiyyəti və mandatı icazə vermədiyi halda, DTİHB siyasi qərar qəbul edib. Bu, bir daha onu göstərir ki, DTİHB-nin rəhbərliyi müəyyən dairələrin təsiri altında məqsədyönlü şəkildə seçkilərin müşahidəsi kimi texniki məsələni siyasiləşdirir. Aydın şəkildə görünür ki, məqsəd seçkilərdən sonra Azərbaycana qarşı əsassız iradların irəli sürülməsi üçün platformanın hazırlanmasıdır. Seçkilərin müşahidə edilməsində iştirak etməyəcəyi halda, ATƏT/DTİHB-nin seçkilərin nəticələri barədə hər hansı rəy bildirməyə heç bir əsası yoxdur. ATƏT-in fundamental sənədlərinə və mandatına uyğun olaraq, DTİHB sözügedən məsələ üzrə fəaliyyətdə olan sədr və aidiyyəti üzv dövlət ilə məsləhətləşərək, ATƏT-in Daimi Şurasına konstruktiv təkliflər verməlidir. Azərbaycan ATƏT-in dialoq və əməkdaşlıq prinsiplərinə sadiqdir. Parlament seçkilərinin müşahidə edilməsi üçün ATƏT/DTİHB-yə göndərilmiş dəvət hələ qüvvəsindədir.

## YAP-ın nümayəndə heyəti Çinə səfər edəcək

**Y**eni Azərbaycan Partiyası Siyasi Şurasının üzvlərindən Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev və "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə 14-16 oktyabr tarixlərində Çinin paytaxtı Pekində Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) İpək Yolu üzrə xüsusi konfransında iştirak edəcəklər. Konfransın məqsədi tarixi İpək Yolu üzərində yerləşən dövlətlər və xalqlar arasında qarşılıqlı faydalı siyasi, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi, sivilizasiyalararası dialoqun təşviq edilməsidir.

## PA rəsmisi: "Tarasov ağlına nə gəldi yazır"



"**T**arasovun başı götürdüyü öhdəliyə o qədər qarışıb ki, artıq ağlına nə gəldi yazır". SİA-nın xəbərinə görə, bunu Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov "Twitter"dəki səhifəsində yazıb. "Tapşırıqla "Regnum"a yazanda, heç olmasa, Lavrovun, Roqozinin mövqeyini əks etdirən bəyanatları oxuyaydı. Amma, insafla desək, satılmamışdan qabaq - ortabab fikirlər ortaya qoyurdu, özünü biabır etmirdi"- deyə, PA rəsmisi qeyd edib.

## MSK-da müraciətlərə baxılıb



**D**ünən Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. SİA-nın məlumatına görə, iclası komissiya sədri Məzahir Pənahov açıq elan edib və daha sonra Azərbaycan Respublikası MSK-nın 7 oktyabr 2015-ci il tarixli iclas protokolu səsə qoyularaq komissiya üzvləri tərəfindən təsdiq olunub. MSK katibi Arifə Muxtarova 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərlə əlaqədar MSK-ya daxil olmuş müraciətlər haqqında ətraflı məlumat verib. MSK-nın Ekspert qrupunun üzvləri Ramiz İbrahimov və digərləri isə müraciətlər haqqında fikir bildiriblər. Sonda cari məsələlərə baxılıb.

## "2015-ci ilin 9 ayının iqtisadi yekunları pozitivdir"



"**2**015-ci ilin 9 ayının iqtisadi yekunları pozitivdir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Vüqar Bayramov 2015-ci ilin 9 ayının yekunlarına həsr olunmuş müşavirənin əhəmiyyətindən danışarkən deyib. Onun sözlərinə görə, 2015-ci ilin 9 ayının iqtisadi yekunlarını pozitiv qiymətləndirmək olar: "Bu il ümumi daxili məhsuldakı artım tempini qoruyub saxlamaq mümkün oldu. Ən sevindirici məqamlardan biri də ondan ibarətdir ki, iqtisadiyyatdakı artım neftin deyil, qeyri-neft sektorunun hesabına baş verdi. Qeyri-neft sektorunda ikirəqəmli artım qeydə alınıb. Artıq iqtisadiyyatın neftdən qeyri-neft sektoruna diversifikasiyası ilə bağlı addımlar atılır. Bu da inkişafın qeyri-neft sektoru hesabına formalaşması deməkdir". İqtisadçı bildirib ki, 2015-ci ilin 9 ayının yekunlarında əhalinin gəlirləri yenə də inflyasiya səviyyəsini üstələdi: "Əhalinin gəlirləri təxminən iki dəfəyə yaxın inflyasiya səviyyəsindən çoxdur. Bu gəlirlərin real olmasından xəbər verir. Eləcə də 2015-ci ilin iqtisadi yekunlarında həm aqrar sektorunda, həm də sənayedə artımın qeydə alınıb. 2015-ci il kəndə təsərrüfatı ili idi və bu baxımdan kənd təsərrüfatında artım tempinin qorunub saxlanılması və artımın qeydə alınması olduqca müsbət bir addım idi. Bu baxımdan 2015-ci ildə aqrar sektorda aparılan islahatlar növbəti illərdə də öz bəhrəsini daha ciddi şəkildə göstərməyə başlayacaq".

“YENİ HƏDƏFLƏRƏ DOĞRU!”

# Ağalar Vəliyev seçiciləri ilə görüş keçirib

## “Prezidentimiz Cənab İlham Əliyevin ətrafında sıx birləşərək, Azərbaycanımızın inkişafında əməyimizi əsirgəməməliyik”

***Yeni Azərbaycan Partiyasının (YAP) 1 noyabrda keçiriləcək parlament seçkiləri ilə bağlı təbliğat kampaniyasına uğurla başlanılıb. YAP tərəfindən namizədlikləri irəli sürülənlər “Yeni hədəflərə doğru” şüarı ilə seçicilərlə görüşlərini davam etdirirlər.***

97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsindən YAP tərəfindən namizədliyi irəli sürülmüş Ağalar Vəliyevin Boluslu və Gürzallar kəndlərində seçiciləri ilə görüşü keçirilib. Görüşü YAP rayon təşkilatının sədri Elçin İsmayılov açaraq qeyd edib ki, Ağalar Vəliyev ölkəmizdə, eləcə də onun bir çox guşələrində tanınan ən nüfuzlu insanlardan biridir. Elçin İsmayılov xatırladıb ki, 2003-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev rayonun Aşağıağcakənd qəsəbəsində qaçqınlar üçün tikilmiş yaşayış evlərinin və Murovdağdan çəkilmiş içməli suyun açılışında iştirak etmişdi. Məhz hər iki infrastruktur tikintinin aparılmasında Ağalar Vəliyevin böyük xidməti olub.”









Sonra Ağalar Vəliyevin səlahiyyətli nümayəndələri və vəkilləri Şahin Allahverdiyev və Məzahir Zeynalov onun tərcümeyi-halı və əmək fəaliyyəti barədə seçicilərə geniş məlumatlar veriblər. Onlar millət vəkilliyinə namizədin hər zaman öz vədlərinə sadiq qaldığını, öz ölkəsi və xalqı üçün daim əzmlə çalışdığını vurğulayıblar.

Daha sonra seçicilər namizədlə bağlı öz fikirlərini bölüşüblər. Kənd sakini Eyyub Eyyubov çıxış edərək bildirib ki, Goranboy rayonunun uzun illər içməli suyu olmayıb. Lakin Ağalar Vəliyev bu məsələnin həll edilməsi istiqamətində gücünü əsirgəməyib: “Ağalar müəllimin rəhbərliyi ilə Murovdağdan rayonun 17 kəndinə içməli su çəkilib, rayonun kanalizasiya sistemi yenidən qurulub. Artıq rayon əhalisinin Ağalar müəllim haqqında geniş məlumatı var. Biz öz seçimimizi etmişik. Noyabrın 1-də Ağalar Vəliyevə yekdilliklə səs verəcəyik!”

Seçici Aftandil Ocaqverdiyev də YAP tərəfindən namizədliyi irəli sürülmüş Ağalar Vəliyevin işgüzar bir deputat kimi gördüyü işlərdən bəhs edərək, namizədin rayon sakinləri arasında yüksək nüfuzunun olduğunu vurğulayıb. O, YAP üzvü kimi hər birinin partiya tərəfindən namizədliyi irəli sürülmüş Ağalar Vəliyevə dəstək verəcəklərini bildirib.

Tədbirin sonunda namizəd Ağalar Vəliyev seçicilər qarşısında çıxış edərək Cənab Prezident İlham Əliyevin Prezidentliyi dövründə respublikamızda, eləcə də, respublikamızdan kənarda apardığı sosial-iqtisadi işlərdən geniş danışıb: “Bu gün Azərbaycanın inkişaf və tərəqqisinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş, bu gün Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirilən siyasətlə bağlıdır. Ölkəmizdə yürüdülən uğurlu daxili və xarici siyasətin məntiqi nəticəsidir ki, bu gün Azərbaycan nəninki regionda, eləcə də beynəlxalq aləmdə söz sahibinə çevrilmidir. Biz də təbii ki, bu siyasətin dəstəkləyiciləri kimi daim ölkə Prezidentimiz Cənab İlham Əliyevin ətrafında sıx birləşərək, Azərbaycanımızın inkişafında əməyimizi əsirgəməməliyik. Məhz parlament seçkilərində də xalqımızın böyük əksəriyyəti hakim YAP-ın namizədlərini dəstəkləyəcəyini vurğulayırlar. Çünki YAP xalqın partiyasıdır.”

Ağalar Vəliyev də bütün seçiciləri 1 noyabrda YAP-ın namizədinə səs verməyə çağırıb.

Daha sonra seçicilərlə görüş rayonun ən ucqar dağ kəndi olan Gürzəlılar kəndində davam etdirilib. Tədbiri YAP rayon təşkilatının sədri Elçin İsmayılov açaraq, seçiciləri qarşıdan gələn parlament seçkilərində YAP-ın namizədlərinə səs verməyə çağırıb. Ağalar Vəliyevin vəkilləri Şahin Allahverdiyev və Məzahir Zeynalov onun tərcümeyi-halı və əmək fəaliyyəti barədə geniş məlumat veriblər.

Seçicilərə bildirilib ki, Ağalar Vəliyev ölkənin inşaat-tikinti sektorunda özünəməxsus yeri və böyük nüfuzu olan “Azəraqrartikinti” ASC-yə rəhbərlik etdiyi illər ərzində Bakı şəhərində və respublikanın rayonlarında yüzlərlə müxtəlif təyinatlı tikililər, binalar, qurğular inşa edilmiş, bir sıra strateji əhəmiyyətli obyektlər və avtomobil yolları istismara verilmişdir. Bu obyektlərin bir çoxlarının açılışında Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev şəxsən iştirak etmiş və görülən işləri yüksək dəyərləndirmişdir.

2010-cu ilin noyabr ayında A.İ.Vəliyev Yeni Azərbaycan Partiyasından irəli sürülmüş namizəd kimi 11 saylı Qaradağ Seçki Dairəsindən IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. Hazırda Ağalar Vəliyev Milli Məclisin deputatı kimi fəaliyyət göstərir, parlamentin İqtisadi Siyasət Komitəsinin, Avstriya, Belarus, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının, ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür və Azərbaycan-Slovenya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Ağalar Vəliyev Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 9 aprel 2010-cu il tarixli Sərəncamı ilə A.İ.Vəliyev “Əməkdar mühəndis” fəxri adına layiq görülmüş və 10 aprel 2012-ci il tarixli Fərmanı ilə “Şöhrət” ordeni ilə təltif olunmuşdur.

Rayonun Gürzəlılar kənd ağsaqqalı Cahangir Əliyev ,Vəlyəddin Əmiraslanov çıxış edərək Ağalar Vəliyevi iki dəfə onların kəndində qonaq olduğunun qeyd etdilər və onun səmimi, işgüzar, vətəninə bağlı bir insan olduğunu nəzərə çatdırdılar və əminliklə qeyd etdilər ki, 1 noyabrda Gürzəlılar əhalisi ona dəstək olacaq və səs verəcəklər.

Seçicilərlə görüşlər daha sonra da davam etdirilib. Görüşlər rayonun Nərimanlı kəndində və Qızılhacılı qəsəbəsində davam etdirilib.

Nərimanlı kəndindən olan seçici Adil Rzayev çıxışında qeyd etdi ki, vaxtilə Goranboy və Yevlax şəhəri bir olub.Rayonlar ayrıldıqdan sonra da hər iki rayonun sakinləri bir-birləri ilə sıx ünsiyyətdə olub: “Biz əminik ki,Yevlax rayonunda doğulub boya-başa çatmış və əmək fəaliyyətinə Yevlax şəhərində başlamış hörmətli namizədimiz Ağalar Vəliyev babalarımızdan qalmış səmimi əlaqələrimizi daha da genişləndirəcək və öz fəaliyyətini ən dəyərli töhfəsini seçicisi olduğu Goranboy rayonunda davam etdirəcəkdir. Seçici Yeganə Məmmədova çıxış edərək Nərimanlı kənd seçiciləri adından Ağalar Vəliyevi salamladı və əmin etdi ki, kənd seçiciləri YAP-ın namizədini dəstəkləyəcək və ona səs verəcəklər.” Yekunda namizəd Ağalar Vəliyev görüşünə gəlmiş bütün seçiciləri salamlayıb və o, növbəti dəfə parlamentə seçilərsə, bir daha seçicilərinin etimadını doğruldacağını vəd edib.

Qızılhacılı qəsəbəsində seçici İradə Həsənova, Mətanət Əliyeva, Nizaməddin Əliyev, Məhyəddin Əmiraslanov və İlham Allahverdiyev də çıxış edərək, noyabrın 1-də keçiriləcək parlament seçkisində YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

**Rövşən NURƏDDİNOĞLU**

“YENİ HƏDƏFLƏRƏ DOĞRU!”

# Laçınlılar Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklər

*Abşeron rayonu Perekuşkül qəsəbəsi və Xırdalan şəhərində məskunlaşan laçınlı seçicilərlə YAP-ın namizədi Mahir Tapdıq oğlu Abbaszadənin görüşü keçirilib*

**Dünən Yeni Azərbaycan Partiyasının 121 saylı Laçın Seçki Dairəsindən namizədi Mahir Tapdıq oğlu Abbaszadə Abşeron rayonu Perekuşkül qəsəbəsində və Xırdalan şəhərində məskunlasan laçınlı seçicilərlə görüşüb.**





Yeni Azərbaycan Partiyasının (YAP) Milli Məclisə seçkilərdə irəli sürdüyü namizədlərin təbliğat-təşviqat kampaniyası uğurla və yüksək mütəşəkkilliklə davam edir. Kampaniya çərçivəsində növbəti görüş Abşeron rayonunda yaşayan laçınlı seçicilərlə baş tutub. Seçicilər Yeni Azərbaycan Partiyasının 121 saylı Laçın Seçki Dairəsindən Milli Məclisə namizədi Mahir Tapdıq oğlu Abbaszadəylə görüşə böyük maraqla və mütəşəkkilliklə toplaşıblar. Görüşü açıq elan edən Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının sədri Aqil Nəzərli partiyanın namizədi ilə görüşə belə böyük maraq göstərdikləri üçün seçicilərə minnətdarlığını bildirib. O, daha sonra Yeni Azərbaycan Partiyasının 121 saylı Laçın Seçki Dairəsindən namizədi Mahir Abbaszadə haqqında seçicilərə məlumat verib.

Sonra çıxış edən rayon ağsaqqalları və ziyalıları Varaşil Məmmədov, Əmirxan Zeynalov, Haqverdi Təhməzov, Namiq Ağayev, Afərim İsmayılova, Murad Hüseynov, Tahir Salahov, Rüstəm Həsənov və başqaları çıxış edərək 121 saylı Laçın Seçki Dairəsindən seçkilərdə ən şanslı namizəd - YAP-ın namizədi Mahir Abbaszadənin olduğunu vurğulayıblar.





Yeni Azərbaycan Partiyasının 121 saylı Laçın Seçki Dairəsindən Milli Məclisə namizədi Mahir Abbaszadə isə çıxışında onunla görüşə gəlmiş bütün seçicilərə təşəkkürünü bildirərək başlayıb. O, daha sonra ölkəmizdə həyata keçirilən siyasətin uğurlu nəticələrindən danışıb. Əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan və bu gün Cənab Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kurs Azərbaycana çox böyük uğurlar qazandırıb. Daha sonra millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlər barəsində də məlumat verən Mahir Abbaszadə deyib ki, millət vəkilinin ən əsas vəzifəsi ölkəmizin inkişafı üçün daha mütərəqqi, daha işlək qanunların qəbuluna çalışmasıdır: “Mən də bu sahədə fəal olacağam. Həmçinin hər bir seçicimizin problemlərinə öz problemim kimi yanaşacaq, onların həllində səylərimi əsirgəməyəcəyəm. Mən inanıram ki, sizlərin xatirində, sözün həqiqi mənasında, yaxşı millət vəkili kimi qalacağam”.

**RƏFİQƏ HÜSEYNOVA**

# Füzuli seçiciləri parlament seçkilərinə çox fəal başlayıblar

**84 saylı Füzuli Seçki Dairəsindən V çağırış Milli Məclisin deputatlığına YAP-ın namizədi olan Bahar Əvəz qızı Muradovanın təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşü Füzuli rayonunun inzibati mərkəzi olan Horadiz şəhərindəki Muğam Evində təşkil olunubdur.**





400-dən artıq seçicinin iştirak etdiyi tədbir yüksək əhval-ruhiyyə şəraitində keçib. Tədbiri giriş sözü ilə açan YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimova Bahar Muradovanın həyat və fəaliyyəti haqqında görüş iştirakçılarına məlumat verdi və onun vəkillərini görüş iştirakçılarına təqdim etdi. Təşkilatın sədri və vəkillər öz çıxışlarında V çağırış parlament seçkilərini böyük siyasi və əlamətdar hadisə kimi dəyərləndirərək Azərbaycanın bugünkü həyatında onun əhəmiyyətini xüsusi qeyd etdilər. Çıxışlarda vurğulandı ki, respublikamız müstəqillik əldə etdiyi müddət ərzində, xüsusilə də Ümummilli Liderimiz Heydər Əliyevin və Onun ideyalarını yorulmadan, əzmlə və uğurla davam etdirən Cənab İlham Əliyevin rəhbərliyi dönəmində ölkəmiz həm siyasi, həm də sosial-iqtisadi baxımdan böyük bir yol keçib, dünya xəritəsində özünəməxsus nüfuza sahib çıxıb. Bütün bunların ideoloji sütununu isə Ulu Öndər Heydər Əliyev dühasından yaranmış və bu gün 600 mindən artıq siyasi orduya malik YAP təşkil edir. Ona görə də partiyanın namizədi olan Bahar Muradovanın bu bölgədən seçkilərə qatılması böyük bir etimad kimi qəbul olunur. Vəkillər Bahar Muradovanın 2000-ci ildən bəri Milli Məclisdə Füzuli seçicilərini ləyaqətlə təmsil etdiyini, parlamentin sədr müavini, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri qismində bütün səviyyələrdə, o cümlədən müxtəlif beynəlxalq qurumlarda Azərbaycanın haqq sözünü uğurla müdafiə etdiyini, siyasi elmlər üzrə fəlsəfə doktoru kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və digər məsələlərə dair elmi-analitik fəaliyyətini tədbir iştirakçılarının nəzərinə çatdırdılar və onları bu seçkilərdə məhz Bahar Muradovaya səs verməyə çağırdılar.




Seçkilərdə rayon Ağsaqqallar Şurasının sədri Məcnun Namazəliyev, şəhid ailəsinin üzvü Fəridə Quliyeva, təqaüdçü Tehran Hacıyev, gənc müəllimə Gülbahar Eyvazova və Nəriman Nəsirov söz alaraq ölkə rəhbərliyinin apardığı daxili və xarici siyasəti dəstəklədiklərini və məhz buna görə də YAP-ın namizədlərinə səs verəcəklərini bildirərək Bahar Muradovanın böyük səs çoxluğu ilə qələbə qazanacağını əminliklə ifadə etdilər. Namizədi müxtəlif cəhətdən xarakterizə edən seçicilər YAP-ın ideyalarının ardıcıl olaraq həyata keçirilməsində göstərdiyi fəaliyyətini bəyəndiklərini ifadə edərək ona bu siyasi kampaniyada uğurlar arzuladılar.

Seçiciləri qarşısında çıxış edən Bahar Muradova görüş iştirakçılarını salamlayaraq YAP-ın namizədi olaraq ona göstərilən etimada görə partiya rəhbərliyinə və hal-hazırda parlamentdə təmsil etdiyi Füzuli rayonunun seçicilərinə minnətdarlığını bildiribdir. O, ölkə Prezidenti və YAP-ın Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasətin Azərbaycan dövləti və Azərbaycan xalqı üçün müstəsna əhəmiyyəti barədə danışaraq hər kəsi ölkəmizin taleyinə biganə qalmamağa, Ümummilli Lider Heydər Əliyev yadigarı olan YAP-ın ideologiyasına sadiq qalmağa çağırmışdır. O, eyni zamanda son illər ərzində respublikamızda görülmüş işlər və dünyada baş verən proseslər barədə məlumat vermiş və ölkə rəhbərliyinin bununla bağlı mövqeyini tədbir iştirakçılarına açıqlamışdır. Bahar Muradova, eyni zamanda parlament seçkilərində hər kəsi fəal olmağa çağırmış və seçki günü öz iradələrini seçki məntəqələrində ifadə etməyə dəvət etmiş, seçildiyi halda isə öz seçicilərinin etimadını layiqincə doğrultmaq üçün bütün səy və bacarığını əsirgəməyəcəyini bildirdi. Sonda tədbir iştirakçıları və partiya fəalları Bahar Muradova ilə kollektiv şəkil çəkdirdilər.

**R.KAMALQIZI**

# YAP yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazanıb

*Deputatlığa namizəd Hikmət Babaoğlu parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Nərimanov rayon gəncləri ilə görüşüb*

***Dünən Nərimanov Birinci Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının Milli Məclisə deputatlığa namizədi Hikmət Babaoğlunun təbliğat-təşviqat kampaniyası çərçivəsində Nərimanov rayon gəncləri ilə görüşü olub. Görüşü giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatı Seçki Qərargahının sədri Təmraz Tağıyev tədbir iştirakçılarına deputatlığa namizəd Hikmət Babaoğlu haqqında geniş məlumat verib. T.Tağıyev qarşıdan gələn parlament seçkiləri haqqında danışıb, seçkilərin ölkəmizin ictimai-siyasi həyatında mühüm bir hadisə olduğunu qeyd edib. O, eyni zamanda, parlament seçkilərində YAP tərəfindən ən layiqli namizədlərin irəli sürüldüyünü deyib. T.Tağıyev gənclərin məhz YAP tərəfindən irəli sürülmüş namizədləri dəstəkləyəcəklərinə əminliyini vurğulayıb.***







Çıxış edən gənc fəal Nərminə Yunusova Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev tərəfindən gənclərə göstərilən diqqət və qayğının nəticələrindən, dövlət-gənclər siyasətindən geniş bəhs edib. Həmçinin N.Yunusova, ölkədə keçirilən hər bir seçkidə olduğu kimi, parlament seçkilərində də YAP namizədlərinin qələbə qazanacaqlarına və bu prosesdə hər bir gəncin aktiv iştirak edəcəyinə əminliyini bildirib.

Digər gənc fəal Azər Quliyev də çıxışında YAP-ın deputatlığa namizədi Hikmət Babaoğluya uğurlar arzulayıb. Seçkilərdə YAP-ın namizədinə səs verəcəyini deyən A.Quliyev Hikmət Babaoğlunu uğurlu namizəd kimi xarakterizə edib. O, bütün gəncləri seçkilərdə YAP-ın namizədinə səs verməyə çağırıb.

YAP Nərimanov rayon təşkilatı gənclər birliyinin sədri Yusif Babanlı çıxış edərək, Yeni Azərbaycan Partiyasının sıralarında birləşən gənclər ordusunun bu seçkilərdə də yüksək fəallıq göstərərək etimadı doğruldacaqlarını, YAP-ın namizədlərinin qələbə qazanacaqlarına əmin olduğunu deyib. O bildirib ki, Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazanıb. Hikmət Babaoğlunun yüksək intellektual, elmi-siyasi potensialının olduğunu deyən Y.Babanlı gəncləri YAP-ın namizədinə səs verməyə çağırıb.

Çıxış edən deputatlığa namizəd, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu Azərbaycan gəncliyinin böyük qüvvə olduğunu bildirib. YAP-ın gələcəyin partiyası olduğunu deyən deputatlığa namizəd Azərbaycanın gələcəyinin gənclərlə bağlı olduğunu qeyd edib: "Məhz buna görə də Ulu Öndərimiz Heydər Əliyev gəncləri Azərbaycanın gələcəyi adlandırırdı. Bugünkü müstəqilliyimizin qorunub inkişaf etdirilməsi məsələsində də gənclərin üzərinə böyük məsuliyyət düşür. Prezidentimiz İlham Əliyev də çıxışlarında gənclərə inandığını vurğulayıb. Çünki hər bir xalq üçün müstəqillik ən böyük nemətdir. Ümumiyyətlə, bəşəriyyət tarixi xalqların mübarizə tarixidir. Azərbaycan xalqının dövlətçilik tarixi beş min ilə qədər gedib çıxır. Amma elə xalqlar var ki, həm dövlətləri, həm özləri dünyadan siliniblər. Amma bizim xalqımız çətin mübarizələrdən keçərək öz dövlətçiliyini qoruyub saxlaya bilib".

Bu gün dünyada mürəkkəb proseslərin baş verdiyini deyən Hikmət Babaoğlunun sözlərinə görə, imperialist güclər milli dövlətləri məhv edir və onların dəyərlərini sıradan çıxarırlar. "Həmin xalqların milli sərvətləri də talanır, tarixləri, mədəniyyətləri məhv edilir. Ona görə də bugünkü Azərbaycan gəncliyi ayıq-sayıq olmalıdır. Partiyamızın Sədri, Prezidentimiz İlham Əliyevin gənclərə əsas tövsiyəsi də bundan ibarətdir. YAP-ın Proqram və Nizamnaməsində azərbaycançılıq ideologiyası əsas götürülür. Çox sevindirici haldır ki, xalqımız bu ideologiya ətrafında sıx birləşib", - deyə deputatlığa namizəd vurğulayıb.

YAP-ın hər zaman gəncliyin inkişafına dəstək verdiyini deyən Hikmət Babaoğlu millət vəkili seçiləcəyi təqdirdə, gənclərin də parlamentdə layiqli nümayəndəsi olacağını bildirib. O, gənc seçiciləri 1 noyabrda seçkiyə getməyə çağırıb.

***Rövşən RƏSULOV***

## Ölkə ərazisində yağmurlu hava şəraiti davam edəcək

Oktyabrın 14-də Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, şimal-şərq küləyi əsəcək. Gecə 12-14°, gündüz 15-17° isti olacaq. Oktyabrın 14-15-də Abşeron yarımadasında iqlim normasına yaxın temperatur rejimi və meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

## Yanvar-avqust aylarında Azərbaycanda 87 min yeni iş yeri açılıb



Bu ilin doqquz ayında əhalinin gəlirlərində artım meyilləri davam etmiş və ötən ilin eyni dövrü ilə müqayisədə 5.8 faiz, hər nəfərə düşən gəlirlər 4.5 faiz artmışdır. Yanvar-avqust ayları ərzində orta aylıq əməkhaqqı 4.4 faiz artaraq 460 manata yüksəlmiş, 87 min yeni iş yeri açılmışdır. Bütün sosial proqramlar uğurla yerinə yetirilmişdir. AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışında iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev deyib. Ş.Mustafayev bildirib ki, hesabat dövründə ümumi daxili məhsul 3.7 faiz artmışdır. Aparılan şaxələndirmə siyasətinin nəticəsidir ki, qeyri-neft sektorunun real artım tempi 6.4 faiz olmuş, əvvəlki dövrlərdə olduğu kimi, 9 ayda da bu sektorun inkişafı hesabına ümumi iqtisadi artıma nail olunmuşdur. Ümumilikdə, qeyri-neft sektorunda yaradılan əlavə dəyər 2003-cü illə müqayisədə 8 dəfədən çox artmış, qeyri-neft sektorunun ümumi daxili məhsulda payı 68.8 faizə çatmışdır. Sənaye 2.1 faiz, o cümlədən qeyri-neft sənayesi 10.2 faiz, kənd təsərrüfatı 6.7 faiz, informasiya və rabitə xidmətləri 8.8 faiz, pərakəndə ticarət 11.4 faiz, əhaliyə göstərilən pullu xidmətlər 6.2 faiz artmış, inflyasiya 3.7 faiz təşkil etmişdir.

# YAP-ın deputatlığa namizədi Masallı gəncləri ilə görüşüb

*Nəriman Əliyev gənclərin istək və təkliflərini dinlədikdən sonra onların suallarını cavablandırıb*



***Dünən YAP Masallı rayon təşkilatının inzibati binasında 70 saylı Masallı şəhər Seçki Dairəsindən YAP-ın deputatlığa namizədi Nəriman Əliyevlə partiyanın rayon təşkilatının gənc fəallarının görüşü keçirilib. Tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq deputatlığa namizəd Nəriman Əliyev haqqında gənc fəallara geniş məlumat verib. YAP-ın builki seçkilərdə şüarının "Yeni hədəflərə doğru!" olduğunu qeyd edən partiya sədri məhz Azərbaycan gəncliyinin yaxından iştirakı ilə bu hədəflərə çatılacağına inandığını vurğulayıb.***



Çıxış edən YAP-ın gənc fəalı Nemət Abdullayev Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək qayğıdan söz açıb. Masallı rayon Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva Ümummilli Liderin əsasını qoyduğu siyasi ənənələrin bu gün də YAP-ın Sədri, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Digər gənc fəal Əli Məmmədli hər zaman olduğu kimi, bu seçkidə də YAP-ın zəfər çalacağına inandığını və bütün gənclərin partiaynın namizədlərinə səs verəcəklərini bildirib.

Daha sonra çıxış edən Yeni Azərbaycan Partiyasının 70 saylı Masallı şəhər Seçki Dairəsindən deputatlığa namizədi Nəriman Əliyev dövlətin müasir Azərbaycan gəncliyinə çox böyük önəm verdiyini vurğulayıb: "Dövlət idarəçiliyində, siyasətdə getdikcə gənclərə daha çox yer verilməsi bunun bariz nümunəsidir. Dövlətin gəncliyin inkişafı üçün həyata keçirdiyi müxtəlif sosial layihələr gəncliyin inkişafına böyük stimul yaradır. Azərbaycan hakimiyyətinin diqqət mərkəzində olan gəncliyə dövlət tərəfindən hər zaman qayğı göstəriləcəkdir. Bu birbaşa möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin nəzarətindədir". YAP-ın uğurlarının bütün Azərbaycanın uğurları olduğunu və bütün bu uğurların qazanılmasında dövlətimizin başçısının böyük zəhmətinin olduğunu qeyd edən Nəriman Əliyev gəncləri qarşıdan gələn seçkilərdə fəal olmağa, rəhbəri Azərbaycan Respulikasının Prezidenti İlham Əliyev olan YAP-ın namizədlərinə səs verməyə çağırıb.

Nəriman Əliyev ümidvar olduğunu bildirərək, görüşə gələn gənclərin hər birini keçirilən bütün siyasi kampaniyalarda Azərbaycanın heyrət doğuran reallıqlarının davamına tərəfdar olmağa səsləyib. Namizəd, yenidən millət vəkili seçiləcəyi təqdirdə, seçicilərin etimadını doğruldacağını bildirib. Sonda gənclərin istək və təklifləri dinlənilib, onların sualları cavablandırılıb.

**R.KAMALQIZI**



# Astara seçiciləri YAP-ın namizədinə səs verəcəklərini bildirmişlər





Yeni Azərbaycan Partiyasının (YAP) 77 saylı Astara Seçki Dairəsi üzrə namizədi Rəşad Mahmudov 10 oktyabr 2015 - ci il tarixində Kijəbə qəsəbəsində və Pəlikəş kəndində seçiciləri ilə görüş keçirmişidir. R.Mahmudov Kijəbə kəndinin seçiciləri ilə görüşündə son illərdə Astara rayonunda görülən işlər haqqında məlumat vermiş və kənd sakinlərinin problemlərini dinləmişdir. Pəlikəş kəndində keçirilən görüşdə də Yeni Azərbaycan Partiyasının namizədi əhali ilə görüşündə qarşıda duran vəzifələrdən danışmışdır. Hər iki kəndin sakinləri Yeni Azərbaycan Partiyasının namizədinə- Rəşad Mahmudova səs verəcəklərini bildirmişlər.

***Samir***

## Şeyxülislamdan xəbərdarlıq: "Xətaya yol verənlər cəzalandırılacaq"



"Din xadimlərinin moizə və xütbələrində vətənpərvərlik hislərinin aşılanması vacibdir və milli, habelə məzhəb ayrıseçkiliyinin təbliği qəti yolverilməzdir". SİA-nın məlumatına görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə QMİdə keçirilən tədbirdə bildirib. Şeyxülislam qeyd edib ki, məsələyə nəzarət daha da gücləndiriləcək və xətaya yol verənlər müvafiq qaydada cəzalandırılacaqlar. QMİ sədri, həmçinin bildirib ki, din xadimlərinin təkmilləşdirmə kursları Məhərrəm ayından sonra fəaliyyətini davam etdirəcək. Şeyxülislam QMİ Qazılar Şurasının tərkibində Etika komissiyasının yaradılması barədə də məlumat verib. O bildirib ki, QMİ-nin din xadimlərinin fəaliyyətində dini-etik məqamların gözlənilməməsi faktları aşkarlanarsa, bununla bağlı komissiyanın rəyi olacaq: "Bu rəy işəgötürmə məsələsində də vacib şərt kimi nəzərdən keçiriləcək".

**"YENİ HƏDƏFLƏRƏ DOĞRU!"**

# YAP seçicilərin dəstəyilə qarşısına qoyduğu hədəflərə çatacaq

***1** noyabr 2015-ci ildə tarixdə Milli Məclisə keçiriləcək növbəti parlament seçkiləri ilə əlaqədar Qusar rayonunda Yeni Azərbaycan Partiyası namizədlərinin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. 51 saylı Qusar Seçki Dairəsindən Milli Məclisə deputatlığa namizədliyi irəli sürülən Azər Badamovun rayonun Zindan Muruq, Əniq və Urva kəndlərində seçicilərlə görüşləri keçirilib.*

Görüşlərdə YAP Qusar rayon təşkilatının sədri, Seçki Qərargahının sədri David İbramxəlilov çıxış edərək noyabrın 1-də MM-ə keçiriləcək növbəti parlament seçkilərinin keçiriləcəyini qeyd edib. YAP-ın hər zaman xalqa xidmət prinsipini prioritet kimi seçki proqramlarında əsas götürdüyünü bildirən D.İbramxəlilov partiyanın "Yeni hədəflərə doğru" şüarı ilə parlament seçkilərində iştirak etdiyini diqqətə çatdıraraq, seçicilərin dəstəyilə qarşıya qoyulan hədəflərə çatacağına əminliyini bildirib.

Görüşlərdə deputatlığa namizədin vəkili Hüseyn Qafarov çıxış edərək Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Azər Badamovun gördüyü işləri diqqətə çəkərək seçiciləri ona dəstək olmağa çağırdı. Onun, həqiqətən də, seçilməyə və Azərbaycanı təmsil etməyə layiq bir ziyalı olduğunu bildirən natiq dairənin bütün seçicilərini Milli Məclisə namizədliyi irəli sürülmüş Azər Badamova səs verməyə çağırdı. Seçicilərin YAP namizədlərinin təbliğat-təşviqatında fəal iştirakı göstərir ki, biz bu seçkidə də mütləq səs çoxluğu ilə qələbə qazanacağıq.




Görüş seçicilərlə deputatlığa namizəd arasında sual-cavab xarakterli maraqlı müzakirələr aparıldı.

Seçicilərlə keçirilən tədbirlərdə Milli Məclisə namizəd Azər Badamov özünün seçki platforması haqqında məlumat verib və 1 noyabrda keçiriləcək seçkilərdə daha fəal olmağı seçicilərə tövsiyə edib.

Görüşlərdə seçiciləri maraqlandıran suallar detutatlığa namizəd tərəfindən cavablandırılıb.



51 saylı Qusar Seçki Dairəsindən Milli Məclisə deputatlığa Yeni Azərbaycan Partiyasının namizədi Badamov Azər Camal oğlunun təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü Köhnə Xudat, İmamqulukənd, Gedəzeyxur və Gündüzqala kəndlərində seçilərlə keçirilib.

Görüşlərdə YAP Qusar rayon təşkilatının sədri, Seçki Qərargahının sədri David İbramxəlilov, namizədin vəkili Nadirşah Şirinov çıxış ediblər.

Seçicilərlə keçirilən tədbirlərdə Milli Məclisə namizəd Azər Badamov özünün seçki platforması haqqında məlumat verib. O, hər zaman olduğu kimi, partiyanın namizədlərinin seçicilərin etimadını doğruldacaqlarını diqqətə çatdırıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Yeni Azərbaycan Partiyası səs çoxluğu ilə qələbə qazanacaq

*Sabunçu gəncləri qarşıdakı parlament seçkilərində YAP-ın namizədlərinə səs verəcəklərini bildirdilər*




***D**ünən Yeni Azərbaycan Partiyasının Sabunçu rayon təşkilatı YAP-ın deputatlığa namizədi Dilarə Məmmədağa qızı Cəbrayılovanın təşviqatı ilə əlaqədar rayon təşkilatının Seçki Qərargahında gənclərlə görüş keçirib.*



Tədbiri giriş sözü ilə namizədin səlahiyyətli nümayəndəsi, YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva açaraq, Milli Məclis üzvlüyünə namizəd Dilarə Məmmədağa qızı Cəbrayılovanın həyatı və fəaliyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verib: "Partiyanın rayon təşkilatı həmişə ölkədə keçirilən bütün seçkilərə ciddi şəkildə, qələbə əzmi ilə hazırlaşır. Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatı partiyanın "Yeni hədəflərə doğru!" şüarını rəhbər tutaraq, namizədlərin təbliğatını fəal şəkildə həyata keçirir. Seçicilərin YAP namizədlərinin təşviqatında, xüsusilə gənclər fəal iştirakı göstərir ki, biz bu seçkidə də mütləq səs çoxluğu ilə qələbə qazanacağıq. Çünki 1 noyabr parlament seçkilərinə yeni texnologiya ilə, layiqli namizədlərlə, ən başlıcası isə Ümummilli Lider Heydər Əliyev ideyaları ilə gedirik".

M.Abasquliyeva, həmçinin onu da vurğulayıb ki, Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Biz şahidi oluruq ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır və bu təbəqə cəmiyyətin avanqard, aktiv qüvvəsinə çevrilib. Deputatlığa namizəd Dilarə Cəbrayılova görüşdə öz seçki platforması barədə seçicilərə geniş məlumat verib. Dilarə Cəbrayılova müvafiq dairədə hər bir seçicinin, o cümlədən hər bir gəncin səsini qazanmaq üçün çalışdığını, seçicilərin mütləq əksəriyyətinin səsini qazanacağına inandığını və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını bildirib.

Görüşdə çıxış edən gənclər namizədlə onları maraqlandıran məsələlərlə bağlı fikir mübadiləsi aparıblar, öz qayğılarını və arzularını dilə gətiriblər.

**Rəfiqə HÜSEYNOVA**

# YAP - "Yeni hədəflərə doğru" şüarı ilə qələbə əzmindədir

*Partiya tərəfindən namizədliyi irəli sürülmuş Vüsal Hüseynovun seçiciləri ilə görüşü keçirilib*

***U**car rayonunda namizədliyi Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən irəli sürülmüş Hüseynov Vüsal Afqan oğlunun rayonun Ənvər Məmmədxanlı, Yuxarı Çiyni, Türkərri kəndlərində və Ucar rayon bələdiyyəsində seçicilərlə görüşü keçirilib. Görüşü açıq elan edən YAP Ucar rayon təşkilatının sədri, namizədin səlahiyyətli nümayəndəsi Şəhla Abdullayeva Vüsal Hüseynovun həyat və fəaliyyəti ilə bağlı seçiciləri məlumatlandırıb. Qeyd olunub ki, partiyanın namizədlərinin hər biri qələbəyə layiqdirlər və onlar bir amala xidmət edirlər - Azərbaycanın daha güclü, daha qüdrətli və inkişaf edən ölkə olması üçün.*





Daha sonra YAP-ın namizədi seçicilərə öz pllatforması haqqında geniş məlumat verib. O bildirib ki, YAP-ın əsas qayəsi dövlətçiliyin möhkəmləndirilməsi və xalqın rifah halının daha da yaxşılaşdırılmasıdır: "Bu baxımdan, biz ilk növbədə möhtərəm Prezidentimiz İlham Əliyev Cənablarının yürütdüyü uğurlu siyasətini və strateji hədəflərini dəstəkləməli, Onun ətrafında daha da sıx birləşməliyik. Bu gün partiyamızın kifayət qədər millət vəkilləri var və onlar da öz seçiciləri qarşısında götürdükləri öhdəliklərini uğurla icra edirlər. Əldə edilən uğurlar isə həm də partiyamızın nailiyyətləridir."

Vüsal Hüseynov seçiciləri YAP-ın namizədlərinə səs verməyə dəvət edib.

Çıxış edən seçicilər - Yuxarı Çiyni kəndinin təhsil işçisi Maya Qədirova, Türkərri kəndinin ağsaqqalı Faiq Umudov, təhsil işçiləri Sədaqət İbrahimova, Vabil Umud və digərləri öz çıxışlarında YAP-ın namizədlərinin qələbəsinə inandıqlarını vurğulamaqla yanaşı, hər bir ölkə vətəndaşını hakim partiyanın namizədlərinə səs verməyə çağırıblar.

**RÖVŞƏN**

“YENİ HƏDƏFLƏRƏ DOĞRU!”

# Yeni Azərbaycan Partiyası qələbələrə doğru

*Bahar Muradova seçiciləri ilə görüşdü*

***84 saylı Füzuli Seçki Dairəsindən YAP-ın deputatlığa namizədi, Milli Məclisin sədr müavini, YAP-ın İdarə Heyətinin üzvü Bahar Əvəz qızı Muradovanın rayonun Qazaxlar kəndində seçicilərlə görüşü olub. Tədbir iştirakçılarını salamlayan rayon təşkilatının sədri Almaz Həşimova parlament seçkilərində partiyanın namizədi olan Bahar Muradovanın tərcümeyi-halı barədə məlumat verərək, onun vəkillərini kənd sakinlərinə təqdim edib.***






Sonra vəkillər çıxış edərək Bahar Muradovanı dəstəkləməklə ölkə rəhbərliyinin daxili və xarici siyasətini və YAP-ın bu siyasətdəki mövqeyinə birmənalı münasibətlərini ifadə etdiklərini bildirmiş, hər kəsi seçkilərdə fəal olmağa səsləmişlər.

Deputatlığa namizəd Bahar Muradovaya xitabən çıxış edən kənd ağsaqqalı Bayandur Şirinov republikada aparılan abadlıq və quruculuq işlərindən razılıqlarını ifadə edərək, dövlət rəhbərinin bütün məsələlərə dair mövqelərinə dəstək olduqlarını bildiribdir.

Qazaxlar, Mirzənağılı və Əhmədalılar kənd sakinləri - fermer Oqtay Alışov, müəllimə Vəfa Süleymanzadə, Günel Süleymanova və İlahə Zeynalova öz çıxışlarında YAP-nın fəaliyyətinə rəğbətlə yanaşdıqlarını qeyd edərək onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə rəhbərliyinə, habelə ən müxtəlif səviyyələrdə onları ləyaqətlə təmsil edən Bahar Muradovaya təşəkkür edib və növbəti 5 il üçün yenidən Bahar Muradovanı Milli Məclisin üzvü kimi görmək arzusunda olduqlarını bildiriblər.

Bahar Muradova bütün çıxışçılara və onunla görüşə gəlmiş sakinlərə minnətdarlığını bildirərək həmişə Heydər Əliyev ideyalarının təşəkkül tapması üçün Azərbaycan dövlətinin və Azərbaycan xalqının, xüsusilə də özünün də təmsil olunduğu Qarabağ bölgəsinin çiçəklənməsi naminə var gücü ilə çalışmağa həmişə hazır olduğunu bildiribdir. Cəbhənin təmas xəttində yaşayıb fəaliyyət göstərməklərinə baxmayaraq kənd sakinlərinin ruh yüksəkliyinə, nikbinliklərinə, doğma torpaqlarına çox bağlı olduqlarına heyranlığını gizlətməyən Bahar Muradova dövlət başçısı, YAP-ın Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə yaxın zamanlarda Qarabağ probleminin Azərbaycanın maraqlarına uyğun və ədalətli həllinə nail olunacağına inamını ifadə edərək bu amal uğrunda daha sıx birləşməyə çağırmışdır.

Sonda seçicilərlə kollektiv şəkil çəkdirib.

**RƏFİQƏ KAMALQIZI**

## Cavid Qurbanov: “Bakı-Tbilisi-Qars” dəmir yolu xəttində tikinti işləri yekunlaşmaq üzrədir



“Bakı-Tbilisi-Qars” dəmir yolu xəttinin Azərbaycan tərəfində aparılan tikinti işlərinin əksər hissəsi yekunlaşıb. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov deyib. O bildirib ki, artıq yolun tikintisi başa çatıb və demək olar ki, Gürcüstanla Türkiyə arasında olan tunelin tikintisi yekunlaşıb. Qeyd edək ki, sentyabrda İsveçrədə “Azərbaycan Dəmir Yolları” sifarişi ilə və gələcəkdə “Bakı-Tbilisi-Qars” dəmir yolu xəttində hərəkət edəcək yataq tipli sərnişin vaqonlarına baxış və hazır birinci vaqon gövdəsinin qəbulu həyata keçirilib. Bakı-Tbilisi-Qars marşrutu üzrə hərəkət edəcək qatarlar üçün Azərbaycan tərəfi “Stadler” şirkətinə 30 ədəd yataq tipli vaqon sifariş edib. “Standart”, “komfort”, “biznes” və “restoran” tipli istehsal ediləcək vaqonlar kateqoriyasına görə 10, 20 və 32 yerlik olacaqdır. 2016-cı ilin iyul-avqust aylarında ilk 10 vaqonun istismara buraxılması nəzərdə tutulur.

## OPEC: ABŞ-da neft istehsalı 8 ildən sonra ilk dəfə azalacaq

Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) 2016-cı ildə ABŞ-da neft istehsalının 8 ildən sonra ilk dəfə azalacağını proqnozlaşdırır. AZƏRTAC xəbər verir ki, bu barədə OPEC-in oktyabrın 12-də dərc edilən aylıq hesabatında deyilir. Bildirilir ki, Fransanın “Total” şirkətinin neft və təbii qaz istehsalını 0,5 faiz azaldaraq gündəlik 12,74 milyon barrelə çatdırması gözlənilir. İstehsaldakı azalmaya səbəb kimi neftin qiymətindəki ucuzlaşma ilə əlaqədar xərclərin məhdudlaşdırılması göstərilir. “Baker Hughes Inc.”in məlumatlarına görə, ötən ilin oktyabrından bu vaxtadək ABŞ-da istifadə olunan qazma qurğularının sayı yarıdan çox azalıb. ABŞ-ın Massachusetts əyalətində yerləşən “Strategic Energy & Economic Research”in rəhbəri Maykl Lunç bildirib ki, gələn il qaya qazı və neft istehsalında olub-olmayacaqları hələ ki məlum deyil. Qazma və istehsal ilə bağlı məlumatlar pessimist proqnozu təsdiqləyir. OPEC-in bu fikirdə olması isə qeyri-adi deyil. “Energy Information Administration”un məlumatlarına görə, ABŞ-ın həftəlik istehsalı avqust və sentyabr aylarında, iyun və iyulla müqayisədə gündəlik təxminən 330,000 barrel azalıb.

# Yeni Azərbaycan Partiyası seçkilərin favoritidir

*Xaçmazlı seçicilər YAP-ın namizədlərini dəstəkləyirlər*

***Dünən YAP-ın 55 saylı Xaçmaz Seçki Dairəsində namizədliyi YAP tərəfindən irəli sürülmüş Səlimov Eldəniz Adil oğlu Müşkür və Köhnə Xaçmaz kənd seçiciləri ilə görüşüb. Görüşdə YAP Xaçmaz rayon Seçki Qərargahının sədri Nazim Ağayev bildirib ki, Yeni Azərbaycan Partiyası ölkənin ən güclü, aparıcı siyasi təşkilatı olduğunu ölkədə keçirilən bütün seçkilərdə qazandığı parlaq qələbələrlə sübut edib.***



O, vurğulayıb ki, YAP Azərbaycanda ən nüfuzlu partiya kimi, ölkənin inkişafı və xalqın rifahı naminə fəaliyyət göstərir: “Yeni Azərbaycan Partiyası qarşıdan gələn 1 noyabr parlament seçkilərində məhz “Yeni hədəflərə doğru!” şüarı ilə iştirak edir. Ölkənin sosial-iqtisadi qüdrətinin artması, milli dövlətçiliyimizin möhkəmlənməsi Yeni Azərbaycan Partiyasının başlıca amalı və əsas hədəfidir. Parlamentdə çoxluq təşkil edən partiya kimi, mütərəqqi, humanist qanunların qəbulunda, milli qanunvericiliyimizin təkmilləşdirilməsində və inkişaf etdirilməsində Yeni Azərbaycan Partiyasının rolu çox böyükdür. Bu səbəbdən, Xaçmazda seçicilər Yeni Azərbaycan Partiyasının namizədləri ilə görüşlərə böyük maraq göstərir, partiyanın namizədlərinin keçirdiyi görüşlərə fəal şəkildə qatılırlar. Bu, Yeni Azərbaycan Partiyasına böyük inamın və yüksək etimadın göstəricisidir”.

N.Ağayev Eldəniz Səlimovun həyat və fəaliyyəti ilə bağlı ətraflı məlumat verib: “Yeni Azərbaycan Partiyasının namizədi kimi, Eldəniz Səlimov üzərinə düşən məsuliyyəti hiss edən namizəddir. O, sizin seçiminizə güvənərək, azad və demokratik seçki kampaniyasında layiqli qələbə qazanmağa çalışır. Seçkidə qələbə qazanacaq əksər Yeni Azərbaycan Partiyası namizədləri sırasında Eldəniz Səlimovun da olacağına inanırıq”.

Görüşdə seçicilərdən Raisa Cavadova, Nağı Sadıqov, Kəmalə Bədəlova, İnqilab Musayev, Xanlar Əsgərov çıxış edərək namizədi tanıdıqlarını və intellektinə, potensialına tanış olmaqlarını bildirməklə, gələcəkdə rayonlarının Milli Məclisdə layiqli təmsilçisi olacağına inandıqlarını bildirdilər.




Parlament seçkilərində Yeni Azərbaycan Partiyasının 55 saylı Xaçmaz Seçki Dairəsindən namizədi Eldəniz Səlimov keçirdiyi görüşlərdə seçki platforması barədə dolğun, ətraflı məlumat verib, millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlər barədə danışıb. Milli Məclis üzvlüyünə namizəd Eldəniz Səlimov, həmçinin seçicilərə təbliğat-təşviqat kampaniyasında onu səmimi qarşıladıqlarına, fəal şəkildə dəstəklədiklərinə görə, öz minnətdarlığını bildirib.

**R.HÜSEYNOVA**

TƏRS BAXIŞ

# "Satqın" elan edilənlər kimi satqın elan edəcək?

## *Satqınlar siyahısında birinci yeri Əli Kərimli tutur*

***Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Əli Kərimli qanadından qoparaq, Razi Nurullayevin AXCP Etimad Qurultayına hazırlıq üzrə Təşkilat Komitəsinə (EQTK) üzv yazılan cəbhəçilərin sayı durmadan artır. Artıq demək olar ki, Əli Kərimli tərəfdarlarının sıralarında onun müavinlərindən başqa kimsə qalmayıb. Daha dəqiq desək, yerdə qalanların da bu minvalla AXCP EQTK-ya transfer olunacaqları reallaşmaq üzrədir. Düzdür, hələlik ətraflarında baş verən boşalmalara guya etinasız yanaşdıqlarını göstərməyə cəhd edən Əli Kərimli qanadı, əslində, daxillərində bir təlaş hissi keçirdiklərini gizlədə bilmirlər. Görünür, bu səbəbdən ard-arda istefaya gedərək, Razi Nurullayev qanadına keçid edən cəbhəçilərə dərhal "satqın" damğası vururlar. Halbuki elə gedənlərin özləri başda da Əli Kərimli olmaqla, onu dəstəkləyənləri çoxdan satqın kimi damğalayıblar və əslində, bu məsələdə haqlıdırlar da.***

### Əli Kərimli indi də həmin adı öz boynunda saxlamaqdadır

Uzun illər ölkənin siyasi-ictimai proseslərindən yararlanaraq, məhz dövlətçilik maraqlarına ziddiyyətli siyasət yürüdən Əli Kərimli bu illər ərzində heç bir uğura imza ata bilməsə də, AXCP-nin sədri kimi qalmaqda davam edir. Partiyasında bilavasirə avtoritar idarəçilik, diktatorluq rejimi quran Kərimli "hamısı mənimdir" yaxud da "məni dəstəkləməyənlər satqındır, xəyanətkardır" prinsipi ilə Əbülfəz Elçibəyin əlindən zorla qopardığı, işğal etdiyi təşkilatı uçuruma aparıb. Bu baxımdan, reallıqda onun özünün hələ uzun illər öncə öz liderinə qarşı qurduğu xain plan icra olunduqdan sonra xəyanətkar adına layiq görülən Əli Kərimli indi də həmin adı öz boynunda saxlamaqdadır.

Bu arada AXCP EQTK-si daha yeddi rayonda təşkilatlanıb. Bunlar Sabunçu, Qobustan, Gədəbəy, Füzuli, Zəngilan, Əsgəran və Xocalı rayonlarıdırlar ki, onlar bütövlükdə Əli Kərimlidən imtina bəyanatı yayaraq, Razi Nurullayev qanadına keçiblər. Onlar da digər etirazçılar kimi bundan sonra alternativ AXCP-də siyasi fəaliyyət göstərəcəklərini bildirərək, sona qədər Əli Kərimliyə qarşı mübarizə aparacaqlarını istisna etmirlər.



### Etirazçılar: "Biz AXCP adından imtina etməyəcəyik və partiyanın adını dəyişmək fikrimiz yoxdur".

Yeri gəlmişkən, "SƏS" qəzetinə AXCP EQTK idarə heyətinin üzvü Fəxrim Abduləzimovun iştirakilə 18 oktyabrda keçirəcək qurultayla bağlı məlumatlar daxil olub. Məlumatda qeyd olunur ki, AXCP EQTK rayon şöbə sədrləri və Ali Məclis üzvlərinin iştirakilə konfrans keçirilib. Konfransda narazılar bəyan ediblər ki, onlar heç vaxt AXCP adından imtina etməyəcəklər. "AXCP hər zaman bizim olub" deyən Fəxrim Abduləzimov qeyd edib ki, cəbhəçilərin yüksək fəallığılə keçirilən konfransda səslənən əsas fikirlərdən biri AXCP-nin rəsmi təmsilçiliyi ilə bağlı olub: "Biz AXCP adından imtina etməyəcəyik və partiyanın adını dəyişmək fikrimiz yoxdur.Yeni partiya yaratmaq fikrində deyilik. AXCP EQTK-nin keçirdiyi müşavirə bir daha sübut etdi ki, əsl cəbhəçilər məhz burada birləşib. AXCP EQTK-nin 18 oktyabrda keçiriləcək qurultayı sübut edəcək ki, əsl AXCP kimdir...AXCP hər zaman bizim olub və yenə də rəsmi şəkildə bizim olacaq".

Daha bir maraqdoğurucu məqam isə uzun illər Əli Kərimlinin siyasətini müdafiə edən, məhz onun güdazına gedərək həbsə düşən Seymur Həzinin də Razi Nurullayevə dəstək göstərməsi olub. Hətta onun həbsxanadan dəstək məktubları göndərdiyi də məlum olub. Baxmayaraq ki, onun adı hələ də Əli Kərimlinin sədri olduğu AXCP-nin idarə heyətinin sıralarında qalmaqdadır.

### Seymur Həzi və Asif Yusifli Əli Kərimlinin yanlış siyasətinin qurbanları elan edildilər

Hətta AXCP EQTK-nin sonuncu müşavirəsində Seymur Həzinin həmin mövqeyi müdafiə olunub. Məsələn, AXCP EQTK idarə heyətinin digər üzvü Ehtiram Mehdiyev hesab edib ki, Seymur Həzi və başqa həbsdə olan cəbhəçi Asif Yusifli məhz Əli Kərimlinin yanlış siyasətinin qurbanı olublar: "Bizimlə eyni fikirdə olan əqidə yoldaşlarımız - məhbus həyatı yaşayan Seymur Həzi və Asif Yusifli Əli Kərimlinin yanlış siyasətinin qurbanlarıdır. Seymur Həzinin həbsini birmənalı olaraq AXCP-nin daxilində gedən proseslərin nəticəsi hesab edirəm. Həmin ərəfədə mən də Seymur Həzinin yanında idim, sadəcə, bir neçə mərhələdə iştirak etmədim, ona görə də Əli Kərimlinin qurbanlarından birinə çevrilmədim. Biz partiyada gəncləşmə siyasəti aparırdıq, Seymur Həzi də öndə olan simalardan biri idi və Əli Kərimli onun oyundan çıxardı. Seymur Həzi görür ki, Əli Kərimlinin atdığı addım 20 ildən çoxdur ki, heç bir nəticə vermir. Əli Kərimli yalnız öz şəxsi maraqlarına xidmət edən iyrənc siyasət aparır".

Lakin buna baxmayaraq, AXCP EQTK-nin keçirəcəyi qurultayında Əli Kərimlinin rəhbərlik etdiyi parçalanmış AXCP və onun sıralarında qalmağı tərcih edənlər xəyanətkar elan ediləcəklər. Artıq bu barədə də qəti qərara gəlindiyi bildirilir. Bu isə bir daha sübut edir ki, yaxın zamanlarda Əli Kərimli və onun ətrafındakı beş-üç nəfər quyruqbulayan nökərindən ibarət olacaq AXCP tarixin qara, rüsvayçı arxivinə gömülmək üzrədir. Faklar da məhz bunu göstərir.

***Rövşən RƏSULOV***

# Daxili orqanında narkotik vasitələr keçirmək cəhdlərinin qarşısı alınıb




Astara Gömrük İdarəsinin sərnişin şöbəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına piyada gələn Azərbaycan vətəndaşı Rafael Qənbərovun üzərində şəxsi yoxlama aparılıb. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, yoxlama zamanı onun daxili orqanından (düz bağırsağından) 3 ədəd bükümdə, ümumi xalis çəkisi 106,9 qram olan narkotik vasitə - heroin və 1 ədəd bükümdə, xalis çəkisi 7,98 qram olan narkotik vasitə - həşiş aşkar olunub. Azərbaycan vətəndaşı Valeh Bədəlovun üzərində aparılan şəxsi yoxlama zamanı isə onun daxili orqanından (düz bağırsağından) 3 ədəd bükümdə, təmiz çəkisi 15,519 qram olan narkotik vasitə - heroin, təmiz çəkisi 37,206 qram olan narkotik vasitə - tiryək və təmiz çəkisi 6,5 qram təşkil edən psixotrop maddə - metamfetamin aşkar olunub. Hər iki faktla bağlı təhqiqat aparılır.



RƏFİQƏ

# Arif Hacılı "gücünü" gözətçiyə göstərir

***Müsavat başqanı Arif Hacılının Qubad İbadoğluya tərəfdaşlıq edən ən sıravi insanlara qarşı belə, barışmaz mövqe göstərməsi əslində, onun öz kreslosuna nə qədər izafi məhəbbət göstərməsinin göstəricisidir. Artıq baş verənlərdən belə nəticəyə gəlmək olar ki, Müsavat partiyası hərgah inandırıcı görünməsə də uzun müddət siyasi arenada qalmağı bacarsa, bu zaman Arif Hacılı İsa Qəmbərdən də artıq müddətdə başqan postunda oturmaq fikrindədir. Söz yox ki, Müsavat partiyasının müxalifətçilikdən o biri tərəfə keçməyə nə qüdrəti, nə də ki, şansı var.***

Artıq bu partiyanın iflası göz qabağındadır. Üstəlik, bunu vaxtında anlayanlar klan partiyasına çevrilmiş təşkilatdan uzaqlaşmaqdadırlar. Məsələn, təkcə Qubad İbadoğlunun ADR hərəkatına onlarla müsavatçının transfer olunması, özü də bunu nümayişkəranə şəkildə edərək, Arif Hacılı başqanlığından imtinalarını bəyan etməsi buna bariz sübutdur. Biz hələ Tural Abbaslının "Ağ Blok"unu və s. etirazçı müsavatçıların müxtəlif qurumlarda cəm olmalarını demirik. Beləliklə, məsələ kifayət qədər bəlli və aydındır.

Ancaq Arif Hacılı hələ də özünü "güclü" göstərmək istəyir. Məsələn o bu dəfə uzun illər partiyanın qərargahına gözətçilik edən bir qocanı təşkilat sıralarından uzaqlaşdırıb. Nədir ki, bu adam partiyanın qurultayında daha çox səs toplamış Qubad İbadoğlunu dəstəkləyib. Daha az səs toplamasına rəğmən, saxtakarlıq yolları ilə başqan seçilmiş Arif Hacılını isə dəstəkləməyib. Bu xəbər indi gəlib çatıb Arif Hacılının qurultayına və neçə illərdir ki, ona gözətçilik edən qoca bir kişini oradan uzaqlaşdırıb. Baxın, nə deyir binəva müsavatçı Zahir Beydulla. Onun sözlərinə görə, 2011-ci ildən etibarən Müsavat partiyasının qərargahında gözətçi işləyib: "İlk vaxtlar ayda 230 manat maaş alırdım. Lakin bir müddətdən sonra mənə dedilər ki, maddi imkan zəifdir. Ona görə maaşımı 150 manata qədər endirdilər. Mən də buna razılaşdım. Hətta maaşımı bəzən kəsirdilər. Narazılıq etmirdim. Lakin son vaxtlar açarı mənim əlimdən aldılar və qərargaha başqa komendant təyin etdilər. Yanvar ayından indiyə qədər olan maaşımı da vermirlər. Gülağa Aslanlıya müraciət etdim. O isə deyir ki, sən müqavilə əsasında deyil, ictimai əsaslarla işləmisən. Məni Müsavat Partiyasında hər kəs tanıyır və hamının işinə yarımışam. Üç-dörd gün bundan əvvəl isə işdən çıxarıldım. Mən bununla bağlı partiyanın rəhbərliyinə ərizə ilə müraciət etmişəm və bunların hamısını orada göstərmişəm. Mən qurultayda Qubad İbadoğluna səs vermişəm. Amma indi Arif bəyin də başqanlığını qəbul edirəm. İşləyək də, nə olar? Bunlar da Qubad bəyin tərəfdarı olduğuma görə məni oradan uzaqlaşdırdılar. Yanvar ayından bəri qalan maaşımı, yəni 2800 manat verməlidirlər. Mənim pulumu vermirlər, ancaq yeni gələn komendant vaxtlı-vaxtında maaşını alır".

Bizcə artıq şərhə də ehtiyac qalmır. Fakt göz qarşısındadır. Arif Hacılı bu gün gözətçini onu dəstəkləmədiyinə görə pulunu mənimsəyir, özünü isə işdən qovursa, sabah partiyanın qərargahını təmizləyən xadimə - Fatma nənəni də oradan uzaqlaşdıracaq. Yəqin Fatma nənə də Tural Abbaslını dəstəkləyibmiş, ona görə. Üstəlik maaşını verməyib, salacaq ixtisara. Daha nə deyəsən belə başqana..?

**ABŞ rəsmiləri, o cümlədən Barak Obama çıxışlarında dəfələrlə öz ölkələrinin "müstəsnalığını" vurğulayır, dünyanın bir yerində xoşagəlməz hadisə, ədalətsizlik baş verdikdə hər kəsin gözünü ABŞ-a dikdiyini, ondan kömək gözlədiyini bildirərək özlərinin militarist və hegemonçu xarici siyasətinə haqq qazandırmağa çalışırlar. Lakin son 10 ildən artıq müddətdə ABŞ-ın qlobal liderliyi ilə davam edən antiterror kampaniyasının tam iflası, terrorizmin arealının daha da genişlənməsi, qəddarlığının isə ağlasığmaz hədləri aşması, habelə rəsmi Vaşinqtonun hərtərəfli dəstəklədiyi "demokratik inqilabların", daha doğrusu, xüsusi hazırlanmış qrupların əli ilə gerçəkləşdirilən çevrilişlərin vəd olunan "işıqlı" nəticələrinin əvəzinə, aramsız xaos, böhran və ölüm gətirməsi bütün dünyada ABŞ-ın "demokratiya, haqq-ədalət mübarizəsinə" dərin inamsızlıq yaradıb. "Ərəb baharı"nın "bəhrəsi" kimi İŞİD-in meydana çıxması və Yaxın Şərq regionunun qan gölünə çevrilməsi isə bu inamsızlığı ən yüksək həddə çatdırıb.**

# Suriya böhranı: yeni dünya nizamına doğru həlledici mərhələ



Dünya ictimaiyyətinin getdikcə güclənən ədalətsizlik, özbaşınalıq və vəhşiliklərdən təngə gəldiyi bir vaxtda siyasi, iqtisadi sanksiyalarla küncə sıxışdırılan Rusiyanın qəfil sıçrayışla dünyanın ən qaynar nöqtəsinə - Suriyadakı münaqişəyə fəal müdaxiləyə atılması Rusiyanın özü üçün riskli addım olsa da, indiki məqamda ABŞ və yaxın müttəfiqlərini həm psixoloji, həm də hərbi-siyasi cəhətdən olduqca çətin vəziyyətdə qoyub.

Suriya hökumətinin müraciəti əsasında Rusiyanın bu ölkə ərazisində hökumət qüvvələri ilə koordinasiyalı şəkildə hava zərbələrinə başlaması ABŞ-ı gözlənilməz situasiya ilə üz-üzə qoyub. İlk günlərdən etibarən Rusiya qırıcılarının və raketatanlarının bombardmanlarının nəzərəçarpan effekt verməsi, İŞİD və digər ekstremist qrupların qərargahlarının, silah anbarlarının və yüzlərlə canlı qüvvəsinin məhv edilməsi, eləcə də terrorçuların bir qisminin ölkəni tərk etməsi, bir hissəsinin təslim olması barədə xəbərlər yayılmağa başladı. ABŞ-ın başçılıq etdiyi koalisiyanın bir ildən artıq





müddətdə İŞİD-ə qarşı fəaliyyətinin Rusiya-Suriya-İran və qismən də İraq hərbi əməkdaşlığının bir neçə gün ərzində göstərdiyi nəticələrdən geri qalması isə Vaşinqtonu beynəlxalq ictimaiyyət qarşısında utancverici duruma salıb.

İndi Qərb ekspertlərini maraqlandıran məsələ Rusiyanın Suriyadakı effektli gedişinin dünyadakı nüfuz balansına göstərəcəyi təsirlə bağlıdır. İstisna edilmir ki, bundan sonra dünya ölkələri çətinliklə üzləşəndə gözlərini ABŞ-a yox, Rusiyaya dikə bilər (bax: Putin has embarrassed us all in Syria. Welcome to the age of Russian power / "The Telegraph", 1 oktyabr 2015).

Suriya meydanında özünü sonadək doğruldacağı təqdirdə, Rusiya beynəlxalq ictimaiyyətin gözündə konfliktləri həll etmək iradəsi və gücü olan, həqiqətən də sabitlik və təhlükəsizliyi bərqərar etmək istəyən qlobal güc imicini qazana bilər. Bu isə indiki məqamda Rusiya üçün çox lazımdır. Çünki Qərb dövlətləri və onların digər regionlardakı yaxın tərəfdaşlarının siyasi, iqtisadi sanksiyaları, təzyiqləri ilə üzləşən, neftin qiymətinin kəskin azalmasından milyardlarla vəsait itirən, iqtisadiyyatı böhran keçirən, əhalisi yoxsullaşan və bu səbəbdən daxili narazılığın artma təhlükəsi ilə üzləşən Rusiyanın demək olar ki, itiriləcək heç nəyi qalmayıb. Bir çoxlarının maraqla Şimal ölkəsinin çökəcəyini gözlədiyi bir məqamda onun qəfil həmlə etməsi nəticədən asılı olaraq ya sonu tezləşdirən çırpınışa, ya da vəziyyəti kökündən dəyişdirən uğurlu gedişə çevrilə bilər.

Rusiyanın Suriyadakı gedişlərinin qəti nəticəsini indidən söyləmək çətindir. Lakin hazırkı məqamda Rusiyanın bu addımı onun Suriya və İranla müttəfiqlik münasibətlərini gücləndirir. Başqa bir tərəfdən, ABŞ işğalından sonra terror yuvasına çevrilən İraq hökuməti də Rusiya ilə əməkdaşlığın mümkünlüyünü istisna etmir. Burada diqqəti çəkən başqa bir məqam İŞİD-ə qarşı mübarizədə aktiv olan kürdlərin, eləcə də İraqdakı kürd muxtariyyətinin rəhbərliyinin sükutudur. İŞİD-in təsir dairəsinin artması və kürdlərin nəzarətində olan ərazilərə hücumlar etməsinin qarşılığında onların özlərinə müttəfiq gördükləri ABŞ-ın səmərəli tədbirlər görməməsi, heç şübhəsiz, kürd muxtariyyəti və hərbi birləşmələrinin rəhbərlərinin narazılığına, rəsmi Vaşinqtondan səssiz incikliyinə səbəb olub. Bu səbəbdən də kürd liderlərinin Vaşinqtonun Moskvaya yönələn tənqid və hədələrinə qoşulmaması diqqəti cəlb edir. Bir məqamı da vurğulayaq ki, hələ BMT Baş Assambleyasının 70-ci sessiyası günlərində Rusiyanın xarici işlər naziri Sergey Lavrov ölkəsinin kürd muxtariyyətinə İŞİD-lə mübarizədə silah yardımı göstərdiyini bildirmişdi. Maraqlıdır ki, Lavrovun az qala hər sözünü şərh edən Qərb mediası bu fikri demək olar ki, tamamilə diqqətdən kənarda qoydu.

İstənilən halda, terrorizmlə səmərəli mübarizənin Rusiyaya Yaxın Şərq regionunda müttəfiqlər qazandıracağı gözləniləndir. Digər tərəfdən, terrorçuluqla mübarizə Rusiyanın beynəlxalq nüfuzunu da xeyli gücləndirə bilər. Belə olan təqdirdə, Qərb üçün Rusiyaya qarşı sanksiyaları davam etdirmək, onu "Böyük səkkizlik"dən (hazırda "Böyük yeddilik") kənarda saxlamaq ən azından mənəvi-psixoloji baxımdan çətinləşəcək. ABŞ-ın beynəlxalq ictimaiyyətin gözündə günahkar, etibarsız tərəfdaş imici qazanması və ona alternativ kimi Rusiyanın meydana çıxması bundan sonra Vaşinqtonun beynəlxalq hüququ saymadan istədiyi ölkədə təkbaşına, yaxud dəstəsi ilə birgə hərbi müdaxilə etməsini xeyli dərəcədə çətinləşdirəcək. İstisna deyil ki, bu məsələdə beynəlxalq ictimaiyyətin təzyiqi ilə yanaşı, ABŞ-ın daxili auditoriyasında da öz hökumətinin xarici siyasətinə olan inamsızlığın və müqavimətin artması da mühüm rol oynayacaq.

Artıq qeyd olunduğu kimi, Rusiyanın Suriyada hərbi əməliyyatlar aparması riskli addımdır. Bu, ilk növbədə, terrorçuların və onları dəstəkləyən qüvvələrin Rusiyanı hədəfə çevirməsinə, ölkə daxilində sabitliyi pozma cəhdlərinə rəvac verə bilər. Bu baxımdan, hərbi əməliyyatların başlamasından sonra yayılan bir xəbər diqqəti çəkir. Belə ki, məlumatlara görə, Şərqi Avropadakı keçmiş sovet respublikalarından, xüsusən də Moldovadan olan kriminallar əlləri̇ndə olan radioaktiv maddələri Yaxın Şərqdəki ekstremist qruplaşmalara, o cümlədən İŞİD-ə satmağa çalışırlar. Bununla bağlı ilin əvvəlində bir neçə halın aşkarlandığı və qarşısının alındığı da bildirilir. Hesab olunur ki, bu cür maddələri ələ keçirən terrorçular hər hansı ölkəyə nüvə hücumu təşkil edə bilərlər (bax: AP INVESTIGATION: Nuclear black market seeks IS extremists / "Associated Press", 7 oktyabr 2015).

Qərb mətbuatında yayılan məlumatlarda radioaktiv maddələrə "Amerikaya nifrət edən" terrorçuların maraq göstərdiyi bildirilsə də, informasiyanın məhz həmin ərazilərdəki terrorçuların Rusiyanın hədəfində olduğu bir vaxtda üzə çıxması maraq doğurur. Məlumdur ki, İŞİD sovet, Çin, ABŞ, Yaponiya istehsalı olan tanklar və digər ağır hərbi texnika, müasir silahlarla yanaşı, kimyəvi silahlara da malikdir. Suriyada mülki əhaliyə qarşı kimyəvi silahların tətbiq olunmasında İŞİD-in əli olduğu bildirilir. İŞİD-in timsalında bu gün terrorçu qruplaşmaların silahlanma səviyyəsinə görə dövlət ordularına bənzəməyə başladığı özünü göstərir. Nüvə silahlarının əldə ediləcəyi təqdirdə isə bu, terrorizmin təkamülünün tamamilə yeni və daha təhlükəli mərhələyə qədəm qoyacağı deməkdir.

Bununla belə, Rusiyanın Yaxın Şərqdə Suriya, İran və İraqla əməkdaşlığı, terrorizmə qarşı apardığı birgə mübarizə havadan hücumların başlanmasından bir neçə gün əvvəl Vladimir Putinin BMT Baş Assambleyasının tribunasından səsləndirdiyi yeni antiterror koalisiyası yaradılması təklifinin reallaşdırılmaqda olduğunu deməyə əsas verir. Buradan belə bir sual meydana çıxır ki, ABŞ-dan fərqli olaraq, Rusiya həqiqətən də terrorizmlə mübarizə apararaq, sabitlik və təhlükəsizliyi bərqərar etməyə çalışacaqmı? İndiki məqamda, özünün beynəlxalq imicini yaxşılaşdırmaq, tərəfdar toplamaq, eləcə də öz daxili təhlükəsizliyini təmin etmək üçün Rusiyanın daha çox ədalət prizmasından məsələyə yanaşacağını gözləmək olar.

Beləliklə, birqütblü dünya sisteminə qarşı çıxan güclərlə Qərb dövlətlərinin mübarizəsinin Suriya mərhələsi həlledici xarakter daşıyır. Bu mübarizənin nəticəsi yeni dünya nizamının simasını müəyyən edəcək.

**Newtimes.az**

# Müxalifətçi namizədlərin işləri məhkəmə çəkişməsinə doğru

*"Ümid" və ASDP sədrləri arasındakı münasibətlər düşmənçilik həddinə çatdı*

***Məlum olduğu kimi, hələ parlament seçkilərində təbliğat və təşviqat işlərinə rəsmi start verilməmiş eyni seçki dairəsindən namizədliklərini irəli sürmüş iki müxalifət partiyasının rəhbəri -"Ümid" partiyasının sədri İqbal Ağazadə və Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə arasında münaqişə yaşanmışdı. Bir-birilərini qəbul etməyən iki müxalifət sədri bu və ya digər şəkildə ittihamlarla çıxış edərək, digərinin layiqli namizəd olmadığını bildiriblər. Lakin məsələnin əsas kökündə dayanan amil ASDP sədrinin "Ümid" sədrini seçki qanunvericiliyini pozmaqda günahlandırmasıdır.***



## Araz Əlizadə İqbal Ağazadəyə qarşı sona qədər mübarizə aparacağını deyib

Daha dəqiq desək, təbliğat-təşviqata start verilməmiş İqbal Ağazadənin vaxtından əvvəl kampaniya aparması qarşı tərəfin narazılığına səbəb olub və nəticədə "Ümid" sədri barəsində Dairə-Seçki Komissiyasına (DSK) şikayət edilib. DSK isə bu şikayəti təmin etmədi. Bundan sonra hər iki namizədin münasibətləri isə bundan sonra daha da gərginləşib. Hətta işi o yerə çatıb ki, Araz Əlizadənin xanım səlahiyyətli nümayəndəsi İqbal Ağazadənin qoçuları tərəfindən təhdid edilib. Məhz bundan sonra, necə deyərlər, odun üzərinə benzin tökülüb. Artıq Araz Əlizadə Mərkəzi Seçki Komissiyasına (MSK) və məhkəməyə müraciət edəcəyini bildirib və Ağazadəyə qarşı sona qədər mübarizə aparacağını iddia edib.

## "Ümid" sədri: "Mənasız-mənasız danışmaqdansa, getsin seçici ilə işləsin"

Lakin ASDP sədrinin məhkəmə iddiası ilə çıxış etməsi qarşı tərəfi narahat etməyib. Hətta bundan sonra İqbal Ağazadə daha sərt çıxışlar edərək, Araz Əlizadəyə meydan oxuyub. Mətbuata açıqlama verərək, Araz Əlizadə adlı bir şəxs barəsində danışmaq istəmədiyini deyən İqbal Ağazadə bildirib ki, opponenti haqqında, ümumiyyətlə, danışmaq istəmir. O, həmçinin qarşı tərəfin onun qanun pozuntularına yol verdiyi iddiasını da qəbul etmədiyini bildirib: "Boş-boş işlərlə məşğul olmasın, daha ciddi işlərlə məşğul olsun. Şərböhtanlara cavab vermək istəmirəm. Mənasız-mənasız danışmaqdansa, getsin seçici ilə işləsin."

"Ümid" sədri əslində onun Araz Əlizadəyə qarşı deyil, məhz Araz Əlizadənin ona qarşı şər-böhtan kampaniyası apardığını da bildirib: "Xahiş edirəm, heç kəs heç kəsi şərləməsin. Təbliğatımızı normal çərçivədə aparaq. İndiyə qədər Araz Əlizadənin ünvanına nə bir söz demişəm, nə də əkstəbliğat aparmışam..."

Beləliklə, hər iki müxalifətçi namizədin qarşıdurmasının getdikcə artan münaqişəyə çevrilməsi həm də belə qənaətə gəlməyə imkan verir ki, bu məsələ seçkidən sonra da davam edəcək, məhkəməyə qədər.

***Mübariz QULİYEV***

# AXCP-də Əli Kərimli-Razi Nurullayev qarşıdurması

***Azərbaycan Respublikasında qanunverici hakimiyyətə keçiriləcək seçkilərin təbliğat-təşviqat mərhələsinə start verildi. Artıq bir neçə gündür ki, partiyalar irəli sürdükləri namizədlərinin dəstəklənməsi üçün yaradılmış imkanlardan maksimum səviyyədə istifadə etməyə çalışırlar.***

Hakimiyyət hərisi olan və istənilən yolla, hətta bu yol dövlətin milli maraq və mənafelərinə zidd olsa belə, bu niyyətinə nail olmağa çalışan AXCP sədri Əli Kərimli yenə partiyasına sədr seçildi. "Axı 25 il sədr oldun neynədin ki, bundan sonra da neyniyəsən?" fikrində olan müavini Razi Nurullayev "ayrılıq" yolunu tutdu. Onun fikrincə, Əli Kərimli partiyanı ancaq öz maraqlarına xidmət edən təşkilata çevirib. Xalqda dayaqları qalmayıb. Artıq bu siyasətə son verilməsinin labüdlüyünü vurğuladı.

Gəlin təhlil edək. Vaxtilə partiyada ikinci şəxs olan insanın dilindən səslənən bu fikirlər, əslində AXCP-nin və ya Əli Kərimlinin partiyasının iç üzünü ifşa edir. Uzun illər özünü müxalifət partiyası adlandıraraq xarici havadarlarından külli miqdarda qrantlar alıb "cibini dolduran" partiya rəhbərliyindən bundan sonra da "yenilik" gözləməyə dəyməz. 4-5 saat keçirilən iclaslarında Əli Kərimlinin facebook profilindəki "layk"larını saymaqla məşğul olan rəhbərlik bunun əvəzində öz gələcək fəaliyyət istiqamətlərilə bağlı ideyaları müzakirə edə bilməzdimi? Yox, çünki onlara xalqın taleyi yox, öz şəxsi mənfəətləri düşündürür. Əli Kərimliyə "sitayiş etmək"lə tənqid etdikləri avtoritarizmi özlərində axtarsalar, daha yaxşı olar. "Öz gözündə tiri görmür, başqasının gözündə çöp axtarır" deyimi yerinə düşər.

Razi müəllim yeni siyasi yol seçən AXCP quracağını bəyan edib. Hətta bunun üçün komitə də yaradıb qurultay keçirəcəyini nəzərə alsaq, Əli Kərimli-Razi Nurullayev qarşıdurması daha da qızışacaq. Məqsədlərinin Əli Kərimlidən möhürü qanuni yolla alaraq ona "qapını göstərmək" olduğunu bildirən Razi cəbhəsi bu qərarlarında yamanca qəti görünürlər. Sosial bazası, demək olar ki, yox səviyyəsində olan, "mitinqlərinə" donorlarından maliyyələşdirmə yolu ilə "beyni qanlı" gəncləri cəlb edən, mübarizələrini söyüş, təhqir, qarayaxma, insan şəxsiyyətini alçaltma üzərində quran AXCP iki cəbhəyə bölünməklə olan-qalan nüfuzunu da itirmək üzrədir. Xalqa indiyəcən faydası dəyməyən, üstəlik parçalanmış partiya və yalnız öz şəxsi mənfəətini güdən "lider", yaxud "liderlər" lazımdırmı?



***Tofiq Abdullayev***



# Cəmil Həsənlinin "deputat siyahısı" və elementar naşılıq

**SAMİR**

***Seçki dönəmində hər şey həssaslıq tələb edir. Deputatlığa namizədlərdən tutmuş adi vətəndaşa qədər hər kəsin məsuliyyəti daha da artmış olur. Gərək nə danışdığını, kimə səs verdiyini yüz dəfə ölçüb, bir dəfə biçəsən. Yadınızdadırsa, 2013-cü ildə "Milli Şura" "kölgə kabineti" formalaşdırmaq istəyirdi. Nazirlər, komitə sədrləri və xidmət rəsilərini artıq "təyin eləmişdilər".***

Sonu sizə də bəllidir. İndi 2015-ci ildir və "Milli Şura"nın yeni bir siyahı ilə ortaya çıxması da gözlənilən idi. Yəqin "Milli Şura"nın sədri Cəmil Həsənli, "deputat seçiləcək" şəxslərin siyahısını açıqladığından məlumatınız var. Bunun nə qədər gülünc bir addım olduğunu C.Həsənli özü bilsə də, ancaq növbəti biabırçılığa imza atıb. Keçək fakta. Belə ki, C.Həsənli 27 saylı ikinci Sabunçu seçki dairəsindən Əliyev Fuad Ağası oğlunun "deputat seçiləcəyini" iddia edib. Apardığımız araşdırmalar zamanı məlum oldu ki, adıçəkilən dairədən yeddi namizəd qeydə alınıb ki, onların arasında Əliyev Fuad Ağası oğlu adlı şəxsin adı, ümumiyyətlə yoxdur. Yəqin ki, C.Həsənli Azərbaycanda deputatları xalqın seçdiyini ya başa düşmür, ya da ki, vaxtilə hazırladığı "kölgə kabineti" kimi növbəti bir siyahını ortaya qoymaqla kiminsə "xoşuna gəlmək" istəyib. Bu boyda biabırçılıqmı olar!? Siyahıda Pənah Hüseynin də adı var. Deyilənə görə, Pənah deputat seçiləcəyi təqdirdə "Milli Şura" sədrinə zırpı bir qonaqlıq söz verib. Camaat seçicilərindən kömək umur, Pənah da Cəmilin "siyahısından...".

Allah bütün dəlilərə ağıl versin, deputatlığa namizəd olan sənət adamlarından birinin seçki şüarı o qədər moderndir ki, şübhəsiz xalq ona "səs verəcək". Kimliyini özünüz tapın. Görün təbliğat plakatında nə yazılıb:

Bu dairənin uzunu,<br>
Çoban qaytar quzunu,<br>
Sən ....... bir səs ver,<br>
Allah versin ruzunu!

Bu adamın instaqramda "mənə verin at, qazanım mandat, bata-bat, çata-çat, seçiciyə bat, at, yat..." misralarından ibarət şeirindən danışmağa da heç lüzum yoxdur. Hər yeri zoopark kimi görən bu adama mikrofon verilsə, lap dəhşət olacaq.

Bir neçə il bundan öncə Avropanın hansısa ölkəsində vətəndaş özünü asıb öldürübmüş. Ölüm səbəbini də kağızda yazıb qoyub ki, "mən seçkilərdə verdiyim səsdə yanıldığıma görə bu addımı atıram". Sən demə, bu vətəndaş seçkidə inandığı bir namizədə səs verib, həmin namizəd də deputat seçiləndən sonra xalqın etimadını doğrultmayıb. Buna görə də vətəndaş intihar edib. Həmin vətəndaş "səs"ə bu qədər müqəddəs yanaşırmış. İndi mən demirəm ki, gedib səs verin, sonra da ümidiniz doğrulmasa, özünüzü öldürün! Sadəcə, istədiyiniz namizədə səs verin. Gerisi kolay...

## Yol qəzası daha bir can aldı

Bərdə rayonunda yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, hadisə rayonun Xəsili kəndində qeydə alınıb. Belə ki, oktyabrın 12-də saat 11 radələrində Bərdə rayonunun Xəsili kəndində kənd sakini Fərid Ziyadzadə idarə etdiyi "Mercedes" markalı avtomobili ağaca vurub. Hadisə nəticəsində sürücü yerindəcə həlak olub. Qəza ilə bağlı Bərdə Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

## Bakıda cinayətkar qadın tutulub



Bakının Binəqədi rayonunda cinayətkar saxlanılıb. Bakı Şəhər Baş Polis İdarəsindən Trend-ə verilən məlumata görə, Novxanı qəsəbəsi ərazisində Xaçmaz rayon sakini, 1995-ci il təvəllüdlü Səringül Ramazanova xuliqanlıq zəminində Bakı şəhər sakini, 1984-cü il təvəllüdlü Anar Məmmədovun boyun nahiyyəsindən bıçaqla xəsarət yetirib. A.Məmmədov aldığı xəsarətlərdən dünyasını dəyişib. Binəqədi Rayon Polis İdarəsi 4-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində S.Ramazanova tutulub.

## Gəncədə əmi qardaşı qızlarını bıçaqladı

Gəncədə əmi qardaşı qızlarını bıçaqlayıb. Trend Kəpəz TV-yə (Region TV) istinadən xəbər verir ki, hadisə bu gün günorta saatlarında qeydə alınıb. Gəncə şəhər sakinləri 38 yaşlı Elnarə Xarafruz və 17 yaşlı Səkinə Xarafruz əmisi tərəfindən bıçaqlanıb. Yaralılar dərhal Gəncə şəhər TTYX-yə çatdırılıb. Bədənin müxtəlif nahiyələrindən bıçaq yarası alan yaralıların vəziyyəti orta qiymətləndirilir. Hadisənin hansı zəmində baş verməsi aparılan araşdırmalardan sonra məlum olacaq. Faktla bağlı Gəncə şəhər Baş Polis İdarəsində cinayət işi açılıb, araşdırmalar aparılır.

# Korrupsiyaya qarşı mübarizə insan hüquq və azadlıqlarının müdafiəsinin əsas istiqamətlərindən biridir

***Korrupsiya insan və vətəndaşların hüquqlarının və azadlıqlarının təmin edilməsinə ciddi maneçilik törədir, xalqın dövlətə etimadını azaldır. Hüquqi dövlət quruculuğuna ciddi əngəllər törədir. Korrupsiya - dövlət funksiyasını yerinə yetirən dövlət vəzifəsi tutan məmurların öz səlahiyyət mövqeyindən istifadə edərək qanunda nəzərdə tutulmamış maddi nemətləri qəbul etməsi, vəzifə xəyanəti etməsi, həmçinin ayrı-ayrı şəxslər tərəfindən yüksək vəzifəli şəxslərin ələ alınmasıdır.***

Korrupsiya ilə əlaqədar hüquqpozmalar - “Korrupsiyaya şərait yaradan, eləcə də, qanuna zidd olaraq nemətlər və üstünlüklərin verilməsi və əldə edilməsi yolilə həyata keçirilən və intizam, mülki-hüquqi, inzibati və cinayət məsuliyyətinə səbəb olan hərəkət və ya hərəkətsizlikdir”.

Korrupsiya bütün bəşəriyyət üçün bəla hesab olunur və ona görə də bütün dünya ölkələri korrupsiyaya qarşı amansız mübarizə aparırlar.

Ulu Öndər Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində korrupsiyaya və rüşvətə qarşı ardıcıl mübarizə aparan böyük şəxsiyyət, dahi dövlət xadimi olmuşdur.

Hakimiyyətə birinci gəlişi zamanı sovet dövründə Ulu Öndərin rüşvətin bütün təzahür formalarına qarşı mübarizəsi tarixin qızıl fonduna daxil olmuşdur. Ölkənin müstəqilliyinin bərpasının ilk illərində Heydər Əliyev hüquqi dövlət quruculuğunun ən mühüm istiqamətlərindən biri kimi korrupsiyaya qarşı mübarizə apardı.

Azərbaycan Prezidenti bu problemin aradan qaldırılması məqsədilə 2000-ci ildə “Azərbaycan Respublikasında Korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi haqqında” Fərman vermiş, “Korrupsiyaya qarşı mübarizə haqqında” qanun qüvvəyə minmişdir. Bu qanunun əsas məqsədi korrupsiya yolilə hüquq pozuntularından yaranan nəticələrin müəyyənləşdirilməsi, qarşısının alınması, araşdırılması və aradan qaldırılması idi. Bu qanun rəsmilərə əlavə ödənişli vəzifələri tutmağı qadağan edir. Rəsmilər bu qanuna görə özlərinin illik gəlirləri, bank hesabları, hər növ mülkiyyəti haqqında məlumat verməlidirlər. O zaman Azərbaycanda korrupsiyaya qarşı mübarizəyə Dövlət İdarəetmə Xidməti üzrə Şura başçılıq edirdi.

Vaxtında verilən qanun nəticəsində dövlət funksiyalarını yerinə yetirən vəzifələri şəxslərin fəaliyyəti üzərində dövlət və ictimai nəzarət gücləndirildi, vətəndaşların hüquqları və qanuni mənafeləri qorundu, hamının qanun və məhkəmə qarşısında bərabərliyi təmin edildi, sahibkarlıq fəaliyyətinin tənzimlənməsində demokratik şərait yaradıldı, istintaq orqanlarının qeyri-qanuni yoxlamaları ləğv edildi, korrupsiya ilə əlaqədar hüquqpozmaların qarşısının alınması, aşkar edilməsi, təqsirli şəxslərin aşkar edilməsi, təqsirli şəxslərin ifşa edilməsi, nəticələrinin aradan qaldırılması üçün əməliyyat-axtarış və istintaq fəaliyyəti həyata keçirildi.

Qanunda müəyyənləşdirildi ki, “Korrupsiya ilə əlaqədar hüquqpozmalara görə seçki və təyinat yolu ilə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının bütün zümrələrində vəzifə tutan şəxslər məsuliyyət daşıyırlar. Bundan başqa, bununla əlaqədar məsuliyyət daşıyan bütün dövlət və qeyri-dövlət strukturlarında çalışan şəxslər korrupsiya ilə mübarizə aparan orqanlar konkret olaraq müəyyənləşdirildi, korrupsiyanın qarşısının alınmasının yolları göstərildi və bütün sahələrdə maliyyə-nəzarət tədbirləri görüldü.

Qanunda korrupsiya şəraiti yaradan hüquqpozmalar və onlara görə məsuliyyətin dərəcəsi müəyyən edildi. Nəhayət, korrupsiya ilə əlaqədar hüquqpozmaların nəticələrinin aradan qaldırılması üçün konkret tədbirlər də dəqiqləşdirildi.

Ulu Öndərin layiqli varisi ölkə Prezidenti İlham Əliyev korrupsiyaya qarşı mübarizəni daha da gücləndirdi.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkədə korrupsiyaya qarşı səmərəli mübarizənin aparılması istiqamətində mühüm islahatlar həyata keçirilmiş, zəruri tədbirlər görülmüşdür.

Dövlət başçısının “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 3 mart tarixli Sərəncamilə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiya Cinayətləri üzrə İxtisaslaşmış Dövlət Antikorrupsiya Orqanının - Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin yaradılması korrupsiyaya qarşı mübarizənin aparılmasını Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin ən önəmli istiqaməti kimi müəyyən edilməsini şərtləndirməklə, bu qəbildən olan cinayətlərə qarşı səmərəli mübarizənin aparılmasına şərait yaratmışdır.

“Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti tərəfindən 22 iyun 2009-cu il tarixdə imzalanmış Fərmanda dövlətin büdcə və digər maliyyə vəsaitlərinin, bələdiyyələrin vəsaitlərinin istifadə olunması, dövlət və bələdiyyə əmlakına sahiblik, istifadə və Sərəncam verilməsi, dövlət müəssisələrinin idarə olunması sahələrində istifadə, tənzimləmə və nəzarət funksiyalarının yerinə yetirilməsinə cavabdeh olan vəzifəli şəxslərin fəaliyyətində şəffaflığın təmin edilməsi, qanun pozuntularına qarşı mübarizənin gücləndirilməsi, qeyd olunan sahələrdə hüquqpozmalar barədə müraciətlərdə göstərilən halların obyektiv yoxlanılmasının təmin edilməsilə əlaqədar konkret tədbirlər nəzərdə tutulmaqla mərkəzi dövlət və icra strukturlarilə yanaşı, prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr qoyulmuşdur.

Həmin Fərmanın icrası qaydasında həyata keçirilmiş tədbirlər nəticəsində 2010-cu ildə prokurorluq orqanlarına daxil olmuş müraciətlər üzrə kifayət qədər əsasların müəyyən edildiyi 23 halda aparılmış araşdırmanın nəticəsi olaraq 21 cinayət işi başlanılmış, görülmüş işlər barədə Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasına məlumat verilmişdir.

2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmiş Nazirlər Kabinetinin cari ilin yanvar ayının 14-də keçirilmiş iclasında dövlət başçısı tərəfindən verilmiş göstərişlərə müvafiq olaraq Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın yanvar ayının 27-də keçirilmiş yığıncağında ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, Azərbaycanın işgüzar nüfuzuna xələl gətirən neqativ halların aradan qaldırılması, bu istiqamətdə işin təşkilinə görə cavabdeh olan dövlət təsisatlarının məsuliyyətinin artırılması, əhalinin haqlı narazılığına səbəb olan, sahibkarlığın inkişafına süni əngəllər yaradan, müxtəlif xidmət sahələrində mövcud olan korrupsiya halları barədə vətəndaşların müraciətlərinə təxirəsalınmadan baxılması ilə əlaqədar qarşıya konkret vəzifələr qoyulması, habelə, rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılmasının tələb edilməsilə ölkəmizdə korrupsiyaya qarşı mübarizənin yeni, daha yüksək mərhələsi başlanmışdır.

Son dövrdə korrupsiyaya qarşı mübarizənin daha ciddi aparılması məqsədilə müvafiq qanunvericilikdə bir sıra dəyişikliklər edilməklə bu sahədə görülən işin səmərəliliyi yüksəlmiş, xüsusilə, profilaktiki fəaliyyətin, preventiv təsirin gücləndirilməsi üçün kompleks tədbirlər həyata keçirilməyə başlanmış və hazırda uğurla davam etdirilir.

“Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” və “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” 18 mart 2011-ci il tarixli qanunlara əsasən korrupsiya ilə bağlı cinayətlər üzrə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti verilmişdir.

Dövlət başçısının həmin qanunların tətbiqilə əlaqədar imzaladığı fərmanlara, “Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” və “Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli Fərmanilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Əsasnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” 8 aprel tarixli fərmanlarına uyğun olaraq müvafiq qanunvericilik aktlarının layihələri hazırlanmaqla yanaşı, Baş Prokurorluq üzrə “Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin strukturunun təkmilləşdirilməsi, idarənin tərkibində olan struktur qurumların Əsasnamələrinin təsdiq edilməsi haqqında” əmrlə yeni struktur dəyişiklikləri həyata keçirilmişdir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Azərbaycan Respublikası Prokurorluğunun verdiyi məlumata görə, 2010-cu il və 2011-ci ilin 8 ayı ərzində Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi tərəfindən 335 şəxs barəsində 132 cinayət işinin istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəməyə göndərilmişdir. 2011-ci ilin yanvar-sentyabr ayları ərzində idarə tərəfindən korrupsiya hüquqpozmalarilə əlaqədar 133 cinayət işi başlanılmış və 147 şəxs barəsində 88 cinayət işi tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmişdir. Bu cinayətlər əsasən rüşvətalma (passiv rüşvətxorluq), vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri), vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, vəzifə səlahiyyətlərini aşma, vəzifə saxtakarlığı, talama, dələduzluq, cinayət yolilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma və sair faktlarla əlaqədar olmuşdur.

Korrupsiya ilə mübarizədə ictimaiyyətin köməyindən istifadə edilməsi, belə neqativ hallarla üzləşmiş şəxslərin ixtisaslaşmış orqana - Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə birbaşa və maneəsiz məlumat vermək imkanlarının yaradılması, bu müraciətlərə təxirəsalınmadan baxılmasının və dərhal müvafiq tədbirlər görülməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun 2 mart 2011-ci il tarixli əmrilə idarənin nəzdində “161” nömrəli “Qaynar xətt” əlaqə mərkəzi təşkil edilərək 3 mart 2011-ci il tarixdən fəaliyyətə başlamışdır.

Əlaqə mərkəzinin fəaliyyət göstərdiyi müddət ərzində daxil olmuş 3 minə yaxın müraciətin təhlili göstərmişdir ki, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində dövlət başçısının siyasi iradəsinə uyğun olaraq həyata keçirilən qətiyyətli və sistemli tədbirlər müsbət nəticə verməklə əhali tərəfindən rəğbətlə qarşılanır.

Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin “Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş müraciətlərlə bağlı aparılmış araşdırmalar zamanı aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının nəqliyyat, əmək və əhalinin sosial müdafiəsi nazirliklərinə, Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə təqdimatlar verilməklə müvafiq şəxslərin cəzalandırılması və qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Beləliklə, Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizənin yeni mərhələsində olub ictimai həyatın bütün sahələrində dövlət, maliyyə, ictimai nəzarəti uğurla həyata keçirir, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna maneə olan mənfi amilləri qətiyyətlə aradan qaldıraraq, inamla irəliləyir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

## İki dil bilən uşaqların düşünmə bacarıqları daha yüksək olur



Amerikalı alimlərin növbəti araşdırması iki dildə danışan uşaqların daha yaxşı empati qurmaq - özünü qarşısındakı insanın yerinə qoyaraq onu anlamaq və nə düşünə biləcəyini dərk etmək qabiliyyətinə malik olduqlarını sübuta yetirib. AZƏRTAC xarici saytlara istinadla xəbər verir ki, alimlərin apardıqları təcrübə zamanı 4-6 yaşlarında uşaqların qarşısına kiçik və orta böyüklükdə 3 ədəd oyuncaq maşın qoyulub. Bu oyuncaqlar onların ən kiçiyini nəzarət edən şəxsin görə bilməyəcəyi qaydada düzülüb. Həmin şəxs uşaqlardan ən kiçik maşını yerində hərəkət etdirməyi xahiş edib. Ən azı iki dildə danışan uşaqların 75 faizi nəzarətçinin ən kiçik maşını görə bilməyəcəyini düşünərək orta böyüklükdə maşını irəliyə çəkib. Bunu bir dil bilənlərin 50 faizi edə bilib. Alimlər belə qənaətə gəliblər ki, iki dildən istifadə edilən ailələrdə böyüyən uşaqlar digərlərinə nisbətən problemlərdən tez çıxış yolu tapır, tez nəticə çıxararaq qərar vermək qabiliyyətinə malik olur və onların düşünmə bacarıqları daha yüksək olur. Bundan əvvəlki araşdırmada isə çox dil bilməyin beyin fəaliyyətinə müsbət təsiri olduğu sübut edilib. Bu araşdırmaların nəticələri Böyük Britaniyanın 'The Economist" jurnalinda dərc edilib.

## Ən sağlam insanlar may ayında doğulanlardır



Amerika tibb işçiləri tərəfindən 30 il ərzində təxminən 2 milyon insanın xəstəliyinin araşdırılması nəticəsində xəstəliklərə meyillikl̇ə insanların doğulduğu ayların arasındakı qarşılıqlı əlaqə müəyyən edilib. AZƏRTAC "Newsland" saytına istinadla xəbər verir ki, statistik göstəricilər ürək-damar çatışmazlığının mart, Diqqət Çatışmazlığı və Hiperaktivlik Sindromunun (DÇHS) və avitaminozun noyabr, astma xəstəliyinin iyun ayında doğulanlarda daha çox müşahidə olunduğunu təsdiqləyir. Həmçinin müəyyən olunub ki, ən möhkəm sağlamlıq may ayında doğulanlarda olur, oktyabrda dünyaya gələnlər isə, təəssüf ki, müxtəlif xəstəliklərdən əziyyət çəkirlər. Tədqiqatlar 1985-2013-cü illərdə dünyaya gəlmiş pasiyentlərin tibb kartları əsasında aparılıb.




## Ronaldo dördüncü dəfə "Qızıl buts" mükafatına sahib olub




"Real" Madrid futbol klubunun hücumçusu Kriştiano Ronaldoya "Qızıl Buts" mükafatı təqdim olunub. AZƏRTAC "Marca" qəzetinə istinadla xəbər verir ki, Madriddə baş tutan mərasimdə kral klubunun prezidenti Florentino Peres və komandanın baş məşqçisi Rafael Benites də iştirak ediblər. Otuz yaşlı portuqaliyalı artıq dördüncü dəfədir "Qızıl buts" mükafatına layiq görülür. Bununla da o, yeni rekord müəyyənləşdirib. Portuqaliyalı futbolçu ötən mövsüm İspaniya çempionatında 35 oyunda 48 qol vurub. Qeyd edək ki, "Real"da 2009-cu ildən forma geyən məşhur futbolçu 324 qolla klub tarixinin ən məhsuldar oyunçusu ünvanına sahib olaraq Raul Qonzalesi geridə qoyub. Raul Qonzales kral klubunda çıxış etdiyi 1994-2010-cu illərdə 323, "Real"ın əfsanəvi futbolçusu Alfredo Di Stefano isə 1953-1964-cü illərdə 308 qol vurub.

## Teymur Rəcəbov Berlində bürünc medal qazanıb



Berlində sürətli şahmat üzrə dünya çempionatının qalibləri müəyyənləşib. Azərbaycan təmsilçisi Teymur Rəcəbov çempionatın bürünc medalını qazanıb. AZƏRTAC xəbər verir ki, 46 ölkədən 158 şahmatçının qələbə uğrunda mübarizə apardığı çempionatda ölkəmizi beynəlxalq qrossmeysterlər Teymur Rəcəbov, Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Qədir Hüseynov, Eltac Səfərli və Namiq Quliyev təmsil ediblər. Turnirin qalibi adını 15 turdan sonra aktivinə 11,5 xal yazdıran Norveç təmsilçisi, klassik şahmat üzrə dünya çempionu Maqnus Karlsen qazanıb. Təmsilçimiz Teymur Rəcəbov, rusiyalı Yan Nepomniatçi və Kuba şahmatçısı Perez Leyner Dominqez hərəyə 10,5 xal toplayaraq 2-4-cü yerləri bölüşdürüblər. Azərbaycan qrossmeysteri əlavə göstəricilərə görə, bürünc medala sahib olub. Şəhriyar Məmmədyarov 10 xalla 5-12-ci yerləri bölüşdürsə də, əlavə göstəricilərə görə 10-cu yeri tutub. Qədir Hüseynov 9,5 xalla 24-cü, Rauf Məmmədov 8 xalla 52-ci, Eltac Səfərli isə 54-cü pillədə qərarlaşıb. Dünya çempionatı İsveçrə sistemi üzrə 15 turdan ibarət olaraq keçirilib.

## İdmançılarımız beynəlxalq turnirdə dörd medal qazanıblar



İranın Ərdəbil şəhərində Braziliya ciu-citsusu üzrə beynəlxalq turnir təşkil olunub. AZƏRTAC xəbər verir ki, yarışda Azərbaycan idmançıları ilə yanaşı, İran, Əfqanıstan və Pakistan milli komandaları da mübarizə aparıb. Yarışda Azərbaycan millisinin üzvləri Əli İsmayılov (50 kq), Samir Səfərli (55 kq), Elməddin Cəfərov (60 kq) qızıl, Ramal Müstafayev (70 kq-dan yuxarı) bürünc medal qazanıblar.

## Albaniya ermənilərlə oyunu pulla "alıb"?

Albaniya yığmasının İrəvanda Ermənistanı məğlub edərək (3:0) tarixində ilk dəfə Avropa çempionatının final mərhələsinə vəsiqə qazanması ilə bağlı şok iddia ortaya atılıb. Apasport.az saytının xəbərinə görə, Serbiya və Albaniya mətbuatında albanların Ermənistanla oyunu satın aldığı deyilir: "Ermənistanın qapıçısı və üç müdafiəçisinin 500 min avro rüşvət aldığı bildirilir. Qrupda heç bir iddiası qalmayan Ermənistan yığmasının bu oyunu satdığı inandırıcı görünür. Erməni müdafiəçinin öz qapısına vurduğu qol və qapıçının böyük səhvi danışılmış oyun iddialarını gücləndirir". Matçın başlamasına az qalmış dünyanın bukmeker kontorlarında Albaniyanın qələbəsinə qoyulan əmsallar sürətlə düşdüyü halda, Ermənistanın məğlub olacağına "inam" çoxalıb. Bütün bunlardan sonra isə İ qrupunda Albaniyanın xal itirməsini gözləyən Danimarka pley-offda oynamaq məcburiyyətində qalıb. Danimarka mətbuatı satılmış oyun iddiasını ciddi şəkildə araşdırmağa başlayıb.



*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi,32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**